www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 dekabr 2015-ci il Çərşənbə axşamı № 273 (6301) Qiymәti 40 qәpik

**Xəbər**

## Dəm qazı Bakıda daha iki can aldı

yazısı səh.14-də

**Gündəm**

### İtkin düşmüş 6 neftçinin cəsədi tapıldı



Digərlərinin axtarışları davam edir; yaralıların vəziyyəti stabildir

yazısı səh.4-də

### İş hansı hallarda dayandırılmalıdır - konkret şərtlər və tələblər

yazısı səh.10-da

### FTX İŞİD-ə qoşulmağa gedən azərbaycanlının adını açıqladı

yazısı səh.8-də

### Nardaranı qarışdıran "xarici qüvvə" kimdir?

yazısı səh.6-da

### AXCP adı uğrunda məhkəmənin günü müəyyənləşdi

yazısı səh.7-də

### "Günəşli" faciəsində terror izi

yazısı səh.6-da

### Müsavat Nərgiz Yaqublunun adına mükafat təsis etdi

yazısı səh.3-də

### Həbsdəki general Akif Çovdarovla bağlı ilginc xəbər

yazısı səh.3-də

### Rusiya qondarma "soyqırım"ı inkar qanunu qəbul etsə...

yazısı səh.11-də

### Leyla Yunusun məhkəməsi təxirə salındı

yazısı səh.3-də

### Türkiyəyə qarşı embarqo Azərbaycana ciddi təsir etməyəcək

yazısı səh.14-də

### Abid Şərifovun Pekindən dönə bilməməsi faktlara çevrilir

yazısı səh.3-də

## Sabiq MTN şefi nazirləri necə işdən çıxardıb - şok adlar

# ELDAR MAHMUDOV QUDASININ YANINA GÖNDƏRİLİR - GƏLİŞMƏ

MTN rəhbəri 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhd ittihamı ilə həbs edilən "prezident Əli İnsanovun baş naziri" kimi Əvəz Ələkbərovun adını çəkib və karyerasını bitirib; Misir Mərdanov haqda da kompromatlar varmış; iqtidar komandasında sabiq MTN şefinin həbsini istəyənlərin sayı niyə çoxdur?




yazısı səh.5-də

## Rusiya Xəzərdən Azərbaycana və Türkiyəyə barmaq silkələdi

Şimal qonşumuz Ankara ilə gərgin münasibətlər fonunda və Ərdoğanın Türkmənistan səfəri ərəfəsində dənizdə növbəti güc nümayişinə başlayıb; Xəzərin yeganə sahibi olmasını göstərməklə Kreml nə demək istəyir?..

yazısı səh.8-də



*Sərdar Cəlaloğlu:*

### "Qafqaz Müsəlmanları İdarəsi ləğv olunmalıdır"

yazısı səh.11-də



*Mirvari Qəhrəmanlı:*

### "Heç vaxt ola bilməz ki, dənizin ortasında kamikadze tapılsın..."

yazısı səh.12-də



Elşad Rəsulov

### Oğlunun doğum günündə itkin düşən neftçinin dəhşətli həyat hekayəsi

yazısı səh.15-də

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015



# Yeni nəqliyyat idarəsinin yaradılması barədə fərman verildi

**Prezident İlham Əliyev Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb. Lent.az prezidentin saytına istinadən xəbər verir ki, fərman Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetməni təkmilləşdirmək məqsədi ilə verilib. Fərmana əsasən, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi yaradılır.**

Nazirlər Kabineti Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi işçilərinin say həddi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti işçilərinin say həddinə bir ay müddətində yenidən baxmalı və Prezidentə məlumat verməli, Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin maddi-texniki təminatı məsələlərinin həlli ilə bağlı zəruri tədbirlər görməlidir.

# ABŞ ümid edir ki...



**"Cənab Uorlik və digər həmsədrlər bu il ərzində prezidentləri bir araya gətirmək və münaqişənin həllində irəliləyiş əldə etmək üçün səylərini artırıblar". Günəşli yatağındakı faciədən danışan səfir bunu böyük faciə adlandırıb.**

O bildirib ki, ABŞ hökuməti, səfirlik və səfirliyin əməkdaşları hadisədə ölənlərin ailələrinin kədərini bölüşür.

"ABŞ-la Azərbaycan Xəzər dənizində obyektlərin təhlükəsizliyi ilə bağlı nə kimi əməkdaşlıq edə bilər", - sualına cavabında səfir qeyd edib ki, hadisə ilə bağlı araşdırma aparıldığına görə əlavə heç nə deyə bilməz.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!
- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Mesavat" - 0.40 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Hüquq müdafiəçisi əfv olacağı ehtimallarından danışdı

**Yeni il yaxınlaşdıqca siyasi məhbusların ailələrinin ümidləri artmaqdadır. Buna səbəb hər il olduğu kimi, bu il də dekabrın son günlərində ölkə başçısı tərəfindən əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlərdir. Praktikadan göründüyü kimi, demək olar ki, son illərin bu günündə əfv sərəncamı ilə bir sıra məhbuslar azadlığa buraxılıb. Əfv Komissiyası üzvlərinin və hüquq müdafiəçilərinin açıqlamaları Yeni illə bağlı gözləntiləri artırır.**



İnsan Haqları üzrə Birgə İşçi Qrupu artıq işlərini yekunlaşdırıb. Məhbuslardan ibarət yekun siyahı Əfv Komissiyasına təqdim edilib.

**İşçi Qrupunun üzvü Səadət Bənəniyarlı** "Yeni Müsavat"a açıqlamasında əfv hazırlıqlarının sürətlə davam etdiyini açıqlayıb: "Son günlərdə ölkəmizdə baş verən hadisələrin əfv sərəncamının verilməsinə təsiri olmamalıdır. Çünki bu sərəncam neçə-neçə ailənin sevinci deməkdir. Yeni ilin ilk günlərində bir çox məhbusun azadlıqda olması böyük sevinc olacaq. İşlərimiz hər an gedir. Yəqin ki, bunun bəhrəsini görəcəyik. Əfv Komissiyasına təqdim etdiyimiz siyahı inanıram ki, nəzərə alınacaq. Tam olmasa da, bir qisminin nəzərə alınacağına ümid edirəm. Adətən bizə və Əfv Komissiyasına yüzlərlə məhbus müraciət edir. Cəmiyyətin diqqət mərkəzində olan məhbuslar belə sərəncamlarda daha çox diqqətdə olurlar. Biz çox çalışırıq ki, bu insanların da adları həmin siyahıda öz əksini tapsın. Arzu edirəm ki, hamımızın ümidləri çin olsun. Üzümüzə gələn bayramda məhbusların ailələrinin sevincli anlarını görməyi çox istəyirik".

**Həbsdəki müsavatçı gənclər Fərəc və Sirac Kərimli qardaşlarının atası Raqif Kərimli əfv xəbərləri ilə bağlı bunları dedi:** "Keçən həftə yanlarına getmişdik. Ümumi vəziyyətləri normaldır. Əfvə gəlincə, deyə bilərəm ki, günahsız insanlar əfv olunur. Şərləmə ilə həbs edilənlərin əfv edilməsi anlayışını qəbul etmirəm. Övladlarım hansı cinayəti etmişdilər ki? Onları günahsız hesab edirəm. Bəraət verilmələrini istəyirəm. Əgər bəraət verilsə, o zaman haqq-ədalətin bərpa olunduğunu deyərəm. Əks halda, oğullarımın hansı cinayətini əfv edirlər? Öz istədikləri işdir. Həbs qərarı verənlər azadlığa çıxmaları üçün də qərar verə bilərlər".

**Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı onun zamanından tez azadlığa çıxmasına ümid etmir:** "Neməti son günə qədər saxlayacaqlar. Ona görə də heç bir gözləntim yoxdur".

**NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova qərarsızdır:** "Bildiyiniz kimi, bu söz-söhbətlər hər bayramqabağı olur. Bunun üçün heç bir fikrim yoxdur. Ola da bilər, olmaya da. Bunu Əfv Komissiyası yaxşı bilər".

**Həbsdəki digər NİDA-çı Ömər Məmmədovun atası Əlyar Məmmədov oğlunun qarşıdan gələn bayramda azad olunacağına ümid edir:** "Dekabrın 6-da Ömərlə görüş günüdür. Yeni ildə oğlumun azadlığa çıxacağına ümid edirəm. Bu dəfə də inamım var. Həm Ömərin cəzasının bir hissəsini çəkməsi, həm yüksək rütbəli məmurların həbsi, həm də xaricdən gələn təzyiqlər ümidlərimi artırır. Prezidentimiz humanizm göstərəcək".

❑ **Cavanşir ABBASLI**

## "Azpetrol"a yeni baş direktor təyin edildi

**"Azpetrol LTD" MMC-nin baş direktoru vəzifəsinə yeni təyinat olub.**

Şirkətdən verilən məlumata görə, bu vəzifəyə Ceyhun Məmmədov təyin edilib.

Ceyhun Məmmədov 1999-cu ildən "Azpetrol" şirkətində müxtəlif vəzifələrdə çalışır.

Baş direktor vəzifəsinə təyin olunmazdan öncə o, şirkətin Əməliyyat Departamentinin rəhbəri olub.

Virtualaz.org saytı xatırladır ki, "Azpetrol" şirkətinin baş direktoru Hüseynağa Rəhimov "elmi işini davam etdirmək üçün öz xahişi ilə" dekabrın 5-də vəzifəsindən azad ediləndən sonra bu post boş idi.

## Nazirik təhsil şöbələrində yoxlamalara başladı

**Təhsil Nazirliyi rayon təhsil şöbələrində yoxlamalara başlayıb. Lent.az-ın məlumatına görə, yoxlamalar məktəblərdə, direktorların təcrid olunması şəraitində keçirilir.**

Nazirlikdə yaradılmış xüsusi komissiya artıq Sabirabad və Ağsu rayonlarında belə yoxlamalara start verib. Yoxlama əsasən qəfil və təhsil şöbələrinin rəhbərliyinin iştirakı olmadan keçirilir. Məlumatda o da deyilir ki, yoxlamalar məktəb təsərrüfatı və ştat vahidləri ilə bağlıdır.

L!FE NEWS

## XİN "Lifenews"un əməlini pisləyib

**"Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədlərinin təhrif edilərək təqdim olunması tərəfimizdən qəti şəkildə pislənilir." APA-nın xəbərinə görə, bu barədə Rusiyanın "Lifenews" telekanalında Azərbaycanın xəritəsinin təhrif olunduğu videosüjetə etiraz olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir.**

Bəyanatda bildirilir ki, Azərbaycanın Rusiyadakı səfirliyi məsələ ilə əlaqədar lazımi tədbirlər görəcək: "Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədlərinin təhrif edilərək təqdim olunması tərəfimizdən qəti şəkildə pislənilir. Bu, ilk növbədə kanalın beynəlxalq hüquqa olan hörmətsizliyinin nümunəsidir, obyektivlik və peşəkarlıqdan tamamilə kənardır. "Lifenews" kanalı əvvəllər də Azərbaycana qarşı qərəzli mövqeyi ilə fərqlənib. Bu da yəqin ki, kanal rəhbərliyinin şəxsi qərəzindən və erməni lobbi dairələrinin təsiri altında olmalarından irəli gəlir".

Xatırladaq ki, dekabrın 5-də "Lifenews"da efirə gedən süjetdə nümayiş olunan Azərbaycan xəritəsi təhrif edilib. Erməni işğalı altında olan Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlar xəritədə göstərilməyib.

Qeyd edək ki, "Lifenews" kanalının baş direktoru Aşot Qabrielyanovdur.

## Goranboy rayonunda bank soydular

**Azərbaycanda bank qarət olunub. Azvision.az xəbər verir ki, hadisə Goranboy rayonunun Dəliməmmədli kəndində qeydə alınıb. Hadisə şahidlərinin verdiyi məlumata əsasən, bank olmayan kredit təşkilatı "Viator Bank"a pul köçürmək üçün gədən vətəndaşlar geri qaytarılıb. Səbəb kimi isə bankın qarət olunması göstərilib.**

Hadisə yerinə polis əməkdaşları cəlb edilib.

Araşdırıma aparılır.

**Başsağlığı**

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Elşad Məmmədliyə nənəsi Mələknisə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## Yenə güclü külək olacaq

**Dekabrın 8-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, axşama doğru arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya daxil olan xəbərə görə, havanın temperaturu Abşeron yarımadasında gecə 0-3, gündüz 9-11, Bakıda gecə 1-3, gündüz 9-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, axşam şimal və şərq rayonlarında yağıntılı olacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 4-9 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacaq.

Departament hava şəraitinin dəyişəcəyi barədə xəbərdarlıq da yayıb. Xəbərdə bildirilir ki, dekabrın 9-da Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi və yağış yağacağı gözlənilir. Dekabrın 9-dan 10-u gündüzədək Azərbaycanın əsasən şimal və şərq rayonlarında hava şəratinin yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

## Xalça Muzeyinin direktoruna şiddətli töhmət verildi

**Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Xalça Muzeyində qanun pozuntularını araşdırıb.**

Nazirliyin mətbuat xidmətindən lent.az-a verilən məlumata görə, araşdırmaların nəticəsi olaraq Mədəniyyət və Turizm Nazirliyinin 27 noyabr 2015-ci il tarixli, 547 nömrəli əmri ilə muzeyin fəaliyyətində yol verdiyi nöqsanlara, kollektivdə normal iş ahənginin pozulmasına şərait yaratdığına, rəhbərlik etdiyi muzeydə əmək və icra intizamına ciddi əməl olunmasını təmin etmədiyinə görə Xalça Muzeyinin direktoru Röya Tağıyevaya sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

Bundan başqa, öz vəzifəsinə məsuliyyətsiz münasibət göstərdiyinə, maliyyə vəsaitlərinin xərclənməsində sənədləşməni qanunvericiliyə uyğun aparmadığına görə muzeyin baş mühasibi Gülnaz Rüstəmova tutduğu vəzifədən azad edilib. Həmçinin Azərbaycan Xalça Muzeyinin fəaliyyətinə nəzarətin gücləndirilməsi, aşkar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə nazirliyin müvafiq strukturlarına konkret tapşırıqlar verilib.

Yeni MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015





**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Eldar Mahmudovun milli təhlükəsizlik naziri olduğu 2004-2011-ci illərdə bir sıra hakimlərin onun və müavini Akif Çovdarovun diktəsi ilə qərarlar qəbul etdiyi üzə çıxır.**



# Abid Şərifovun Pekində xəstələnməsi təsdiqlənir

**Noyabrın 26-da Pekində keçirilən Azərbaycan-Çin Ticarət-İqtisadi Əməkdaşlığı üzrə hökumətlərarası komissiyanın 5-ci iclasında Azərbaycanı təmsil edən baş nazirin müavini Abid Şərifovun səhhətinin pisləşdiyi barədə “Yeni Müsavat”ın məlumatı rəsmən təsdiqlənməsə də, proseslər bunun real olduğunu göstərir. Xatırladaq ki, məlumatda qeyd edilirdi ki, həmin görüşdən sonra Abid Şərifovun səhhətində kəskin problemlər yaranıb. Buna görə də nümayəndə heyətinin üzvləri Bakıya qayıtsa da, o, nəzərdə tutulan zamanda dönə bilməyib. Abid Şərifovun şəkər və qan təzyiqi xəstəliklərindən əziyyət çəkdiyi bildirilir. Görüşdən sonra onun vəziyyəti də məhz bu xəstəliklər səbəbindən pisləşib və Pekində xəstəxanaya yerləşdirilib.**

Baş nazirin müavininin səhhəti ilə bağlı müxtəlif mənbələrdən məlumat əldə etmək istəyimiz baş tutmayıb. Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova da Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli kimi bildirib ki, nazirliyin mətbuat xidmətinə Abid Şərifovun səhhəti ilə bağlı məlumat daxil olmayıb.

Diqqət çəkən məqam budur ki, prezident İlham Əliyev Dövlət Neft Şirkətinin “Günəşli” yatağının 10 saylı stasionar dərin dəniz özülündə baş verən qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında imzaladığı sərəncamla müəyyən edilən üzvlər arasında Abid Şərifovun adı yoxdur.

Nəzərinizə çatdıraq ki, Azərbaycanda baş verən hər hansı fövqəladə hal və ya qəza ilə bağlı ölkə başçısının xüsusi komissiya yaradılması haqqında sərəncamlarında Abid Şərifovun adı mütləq olub...

# Akif Çovdarovla işləyən 3 hakimin adı çəkildi

## MTN bandasının hakim üzvləri kimlərdir?

Konkret olaraq, Respublika Prokurorluğunun “MTN işi” ilə bağlı açıqlamasında 58 sahibkarın şikayətini qeyd etmək mümkündür. Bu sahibkarların əksəriyyəti haqqında məhkəmə hökmlərini hakimlər Eldar İsmayılov, Faiq Qəniyev və Novruz Kərimov çıxarıb. Yaxud jurnalist Pərviz Həşimov barədə məhkəmə hökmünü Bakı Ağır Cinayətlər Məhkəməsində Novruz Kərimovun rəhbərlik etdiyi heyət qəbul etmişdi.

Novruz Kərimov baş redaktor Əvəz Zeynallı haqda hökm çıxaran məhkəmə heyətində də var idi. Novruz Kərimov vaxtilə MTN-də müstəntiq vəzifəsində çalışıb. Yaxud Faiq Qəniyev 2010-cu il aprelin 1-də vəkil Elçin Sadıqovu MTN-ə çağıraraq haqqın.az saytının baş redaktoru Eynulla Fətullayevin işi ilə bağlı dindirmişdilər.

**Vəkil Elçin Sadıqov meydan.tv-yə bildirib ki, 1 aprel 2010-cu il tarixdə, həmin vaxt MTN-də müstəntiq işləyən Faiq Qəniyev ona zəng edərək, icraatında olan cinayət işi ilə bağlı nazirliyə ifadə verməyə çağırıb:** “Mən ora gedəndə məlum oldu ki, bu çağırış icraatında olan cinayət işi ilə bağlı yox, vəkili olduğum Eynulla Fətullayevin Akif Çovdarovun cinayətləri barədə mətbuatdakı yazılarına görədir. Nazirlikdə Qəniyev mənə dedi ki, əslində heç bir cinayət işi yoxdur, sadəcə, Çovdarovun göstərişi ilə bağlı çağırmışam. Akif Çovdarov demişdi ki, Eynulla Fətullayevə onun barəsində yazmamağı çatdırım. Qəniyev dedi ki, Çovdarovun göstərişi ilə səni mətbuatdakı yazılara görə dindirməliyəm. Mən cavab verdim ki, vəkil apardığı iş haq-

mək istəsə də, vəkil bundan imtina etmişdi. Buna görə vəkili 6 saat MTN-də saxlamışdılar. E.Sadıqov səbəbini öyrənmək istədikdə, göstərişin Akif Çovdarovdan gəldiyini bildir-

da dindirilə bilməz və ona bu barədə sual verilməməlidir. Ona görə də imtina edirəm. Təxminən 6 saat məni gözlətdi, sonra Akif Çovdarova ifadə verməməyimlə bağlı məruzə



Akif Çovdarov

etdi. Nəhayət, axşam saatlarında ifadə vermədiyimi bir daha qətiləşdirəndən sonra evə buraxdı. Buna baxmayaraq, Çovdarov barədə yazılar dayanmadı. Bir məqamı da xatırlayım, Çovdarov hazırda mühacirətdə olan jurnalist Aqil Xəlilin işində başqa bir vəkil vasitəsilə mənə hədə-qorxu gəlmişdi”.

# Leyla Yunusun məhkəməsi təxirə salındı

**Dekabrın 7-də Bakı Apelyasiya Məhkəməsində Sülh və Demokratiya İnstitutunun həbsdə olan direktoru Leyla Yunusun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim Vüqar Məmmədov sədrlik edib.

Leyla Yunusun vəkili Elçin Qəmbərov müdafiə etdiyi şəxsə qarşı irəli sürülən ittihamların təsdiqini tapmadığını, buna görə də bəraət verilməsini istəyib. L.Yunusun digər vəkili Elçin Sadıqov da bəraət verilməsini xahiş edib: **“Əgər bəraət vermək mümkün deyilsə, Leyla Yunusun səhhətini nəzərə alaraq həbs-qətimkan tədbirini dəyişməyinizi xahiş edirəm”.**

Arif Yunisin vəkili Əfqan Məmmədov da apelyasiya şikayətinin təmin olunmasını xahiş edib.

Zərərçəkənin nümayəndəsi isə apelyasiya şikayətinin əsassız olduğunu, hökmün qüvvədə saxlanılmasını istədiyini bildirib. Dövlət ittihamçısı da hökmün qüvvədə saxlanılmasını istəyib.

Proses dekabrın 10-dək təxirə salınıb.

Xatırladaq ki, L.Yunusla birgə mühakimə olunan həyat yoldaşı Arif Yunus haqqında noyabrın 12-də həbs-qətimkan tədbiri dəyişdirilib. O, məhkəmə zalından azad olunub, hazırda ev dustağıdır.

Onu da qeyd edək ki, Leyla Yunus Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət), 178.3.2-ci (dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə), 192.2.2-ci (qanunsuz sahibkarlıq - külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.2.2-ci (vergi ödəməkdən yayınma - külli miqdarda törədildikdə), 320.1-ci (hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı ha-



Leyla Yunus

zırlama və ya satma) və 320.2-ci (bu məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri, Arif Yunus isə 178.3.2-ci (dələduzluq) və 274-cü (dövlətə xəyanət) maddələri ilə təqsirləndirilir. Hər iki şəxs barədə olan Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi üzrə cinayət işi ayrıca icraata götürülüb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 avqust tarixli hökmü ilə Leyla Yunus 8 il 6 ay, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdə həmçinin onların əmlaklarının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi öz əksini tapıb.



# Müsavat Nərgiz Yaqublunun adına mükafat təsis etdi

**Dekabrın 7-də Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divanın iclası “Günəşli” yatağındakı neft platformasında dənizdə baş verən faciədə həlak olanların xatirəsinin yad edilməsi ilə başlanıb.**

İlkin olaraq qərarların icrası və görülən işlər barədə verilən məlumatlar dinlənilib.

Neft platformasında baş verən faciəli hadisə geniş müzakirə olunaraq faciənin bütün Azərbaycan xalqını matəmə qərq etdiyi vurğulanıb. Hakimiyyətin ölkə üzrə vətəndaşların taleyinə və təhlükəsizliyinə sərgilədiyi biganə münasibəti, Dövlət Neft Şirkətinin öz işçilərinin həyatına qarşı laqeydliyi qeyd edilib.

Müsavat Partiyasının Divanı baş verən faciədə həlak olanların ailə üzvlərinə, yaxınlarına başsağlığı verib, faciəyə səbəb olan hadisənin ciddi araşdırılmasını və məsul şəxslərin məsuliyyətə cəlb edilməsini tələb edib.

Divan gənc yaşında dünyasını dəyişən Müsavat Partiyasının fəali Nərgiz Yaqublu adına “Nərgiz” mükafatının təsis edilməsi haqqında ictimaiyyətdən, gənclər təşkilatlarından və Nərgizsevərlərdən gələn təklifləri onun ailə üzvləri ilə birlikdə müzakirə edərək, mükafatın təsis edilməsini məqsədəuyğun hesab edib. Müzakirələrin yekununda nüfuzlu ictimai şəxslərdən və gənclərdən təşkil olunmuş 11 nəfərdən ibarət Mükafat Komissiyasının yaradılması haqqında qərar qəbul edilib. Divan eyni zamanda “Nərgiz” mükafatının əsasnamə layihəsinin, komissiya üzvlərinin təkliflərinə və Mükafat Komissiyasının müzakirəsinə açıq olmaqla əsas kimi qəbul edilməsi haqqında qərar qəbul edib.

Xəbərdə sonra deyilir ki, Divan Azərbaycanda və dünyadakı ictimai-siyasi prosesləri geniş müzakirə edib. Türkiyə-Rusiya münasibətlərində yaranan gərginlik, Suriyada genişlənən döyüş əməliyyatları və dinc əhaliyə qarşı artan zorakılıq halları, Rusiyanın geniş coğrafiyada sülhə zərbə vuran hərbi avantüraları, o cümlədən regionda artan siyasi gərginlik şəraiti, Türkiyə Cümhuriyyətinin baş naziri Əhməd Davudoğlunun Bakı səfəri və onun açıqlamaları dəyərləndirilib. Azərbaycan hakimiyyətinin bütün hallarda regional və beynəlxalq siyasi məsələlərdə dövlətin milli təhlükəsizlik və xarici siyasətini Türkiyə dövləti ilə uzlaşdırmasının zəruriliyi vurğulanıb.

Divan “Polis haqqında” Qanuna edilən və polislərə silahdan istifadəyə daha geniş imkanlar yaradan dəyişiklikləri təhlükəli addım kimi qiymətləndirib.

Sonda cari məsələlərə baxılıb.

**❑ E.SEYİDAĞA**

# Azərbaycan rusiyalı iş adamını beynəlxalq axtarışa verdi

**Azərbaycan rusiyalı iş adamını axtarışa verib. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib.**

Məlumatda qeyd olunur ki, 1965-ci il təvəllüdlü Tsindelyani Lento Sosoyeviç qaçaqmalçılıqda təqsirləndirilir.

Azərbaycan hüquq-mühafizə orqanları onun barəsində dövlətlərarası axtarış elan edib və saxlanılması üçün İnterpola müraciət olunub.

APA-nın əldə etdiyi məlumata görə, Lento Tsindelyani Rusiyada sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015

# Azərbaycan mediası “Günəşli qəzası”ndan “qurtula bilmədi”?





**Rauf Arifoğlu:** “Burda mediamızın suçlanmasından daha çox Azərbaycan məmurlarının mətbuatla işləyə bilməməsi prosesini əsas götürmək lazımdır”

**Vüsalə Mahirqızı:** ““Röyters” xəbəri Rövnəq Abdullayevə istinadən versəydi, burda peşəkarlıq baxımdan uduzmuş sayılacaqdıq”

**Günəşli neft yatağında baş verən məşum qəza Azərbaycan mətbuatı üçün bir gerçəyi də üzə çıxardı. Təəssüf ki, media bu xəbəri ilkin mənbədən yaya bilmədi, yerli və dünya ictimaiyyəti isə bu xəbərlə media adına bir xarici informasiya agentliyindən -"Röyters" vasitəsilə xəbər tutdu. Ondan öncə isə Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlıdan.**

Bəs mənzərə Azərbaycan mediası adına niyə uğursuz oldu? Bunun obyektiv və subyektiv səbəbləri nələrdir?

**“Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu** bildirdi ki, Azərbaycan media nümayəndələrindən biri kimi onun üçün də bu mənzərə üzücü olub: “Baş vermiş faciənin ağırlığı ilə yanaşı, Azərbaycan mediasının Neft Daşlarında 32 neftçimizin həlak olması xəbərini xarici media üzərindən yayımlaması ağır idi. Amma saatlar öncədən bu xəbər bizdə də var idi. Bizim əməkdaşlardan birinin atası qonşu platformada işləyirdi. Məlumatı ondan almışdıq. Amma xəbəri dəqiqləşdirmək üçün hansı rəsmiyə müraciət etdiksə, hansı ünvana telefon açdıqsa, hamı arxayınlıqla dedi ki, itki yalnız bir nəfərdir, kütləvi ölüm haqda deyilənlər təxribatdır, evakuasiya həyata keçirilib. Belə bir vəziyyətdə dəqiqləşdirmə imkanları da minimum idi. Çünki qapalı bir məkandır. Yoxlamaq, getmək, ora müxbir yollamaq imkanları yoxdur”.

**Baş redaktor bildirdi ki, xəbəri saatlarla saxlamaq, gözləmək məcburiyyətində qalıblar:** “Biz bu xəbəri yayanda hələ Azərbaycan rəsmən bu xəbəri etiraf etməmişdi. Biz 32 nəfərin həlak olması xəbərini, neftçinin hadisəni təfsilatı ilə qəzetimizə danışması hekayəsini yayanda Azərbaycan rəsmiləri bir nəfərin həlak olması və evakuasiyanın həyata keçməsi xəbərini yayırdı. Burda mediamızın suçlanmasından daha çox Azərbaycan məmurlarının mətbuatla işləyə bilməməsi prosesini əsas götürmək lazımdır. Onlar mediaya açıq deyillər. Onlara bəzən elə gəlir ki, hətta kütləvi ölüm hallarını belə gizlətmək mümkündür”.

**"APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı isə ilk xəbəri “Röyters”in yayması ilə bağlı deyilənlərlə razılaşmadı. Dedi ki, ilk xəbəri Azərbaycan media orqanları veriblər:** “Biz onlayn şəkildə işlədik. Sabahı gün də hadisənin davamı olaraq işləyirdik. ”Röyters"in xəbəri isə Mirvari Qəhrəmanlının 20 saat əvvəl profilində paylaşdığı statusdan hazırlanmış xəbər idi. Bir informasiya agentliyi olaraq Mirvari xanımdan QHT rəhbəri kimi, ekspert kimi rəy ala bilər, onun mövqeyini öyrənə bilərik. Amma xəbər mənbəyi kimi ona istinad edə bilmərik. Jurnalist belə bir xəbər eşidibsə, bunu dəqiqləşdirməli idi. Bunun üçün də ya hadisə yerində olmalıdır, ya da rəsmi xəbərə istinad etməlidir".

**Müsahibimiz dedi ki, qəza zamanı xilas olunanların sayını bilmədən itkin düşənlərin sayını yaymaq doğru deyildi. Bu baxımdan da xilas olunanların sayının açıqlanmasını gözləyiblər:** “Azərbaycan mediası bu prosesdə heç bir sual qoymadan işlədi. 15 saat sonra itkin düşənlərin siyahısı yayıldı. Peşəkar davrandıq. ”Röyters"in xəbərinin bir hissəsi yalan idi. İkinci hissə də Azərbaycandan çıxmış mənbə idi. “Röyters” xəbəri Rövnəq Abdullayevə istinadən versəydi, burda peşəkarlıq baxımdan uduzmuş sayılacaqdıq və deyəcəkdik ki, Rövnəq Abdullayev bizi - Azərbaycan media qurumunu yox, Rövnəq Abdullayevi seçdi".

❑ Sevinc TELMANQIZI

**Dekabrın 4-də Günəşli yatağının 10-cu Dərin Dəniz Özülündə baş vermiş dəhşətli faciədən 4 gün ötsə də, itkin düşən neftçilərin əksəriyyəti hələ də tapılmayıb.**



# İtkin düşmüş 6 neftçinin cəsədi tapıldı

## İtkin düşənlərin axtarışları davam edir; yaralıların vəziyyəti stabildir; faciədə təxribat ola biləcəyi fikirləri düşüncələrdə lövbər salıb

Mərkəzi Neftçilər Xəstəxanasında müalicə olunan İsmayıl Mehdiyev faciənin dəhşətlərini bir daha anlatdı: “Qayıq 42 nəfərlik idi. Gəmilər də yan alırdı, amma dalğa o qədər böyük idi ki, bizə yaxınlaşa bilmirdilər. Onlar çox kömək eləmək istəyirdilər. Amma mümkün olmurdu, müəyyən məsafədən bizi müşayiət edirdilər. Yanğının üstünə su vururdular ki, sönsün. Yeni çalışırdılar bizə kömək etməyə, amma alınmırdı. Qayıq hamıya bəs edirdi, hamının jiletləri də var idi. Mən özüm şəxsən təşkil elədim, camaatı qayığa yığdım. O salamat qalan qayığı mən özüm sallamışam. Lazım olan səviyyədə saxlamışam”.

Mərkəzi Neftçilər Xəstəxanasının baş direktoru Leyla Seyidbəyli bildirib ki, yaralılardan yalnız bir nəfər əməliyyat olunub. O da hadisə baş verən platformanın rəisi Allahverdi Məmmədovdur.

Qeyd edək ki, hadisə baş verən 10-cu Dərin Dəniz Özülündə artıq bərpa işlərinə start verilib.

**“Azneft” İstehsalat Birliyinin baş mühəndisi Balamirzə Ağarəhimov deyib ki, artıq bu istiqamətdə işlərin aparılmasına hazırlıq aparılır:** “Bir yerdə yanğının baş verməsi o boyda platformanın itirilməsi demək deyil. Sadəcə olaraq, biz yanğını söndürən kimi ilk əvvəl yararsız hala düşmüş avadanlıqların demontajı, ondan sonra onların montajı aparılacaq”.

Dekabrın 7-də faciədə ölənlərin ruhuna ehtiram olaraq Dənizkənarı Milli Parkda anım mərasimi təşkil olunub. Parka toplaşan onlarla gənc əllərində olan qərənfilləri dənizə ataraq, itkin düşənlərin tez bir zamanda tapılması üçün dua ediblər.

**Səhiyyə Nazirliyi hadisə ilə bağlı yaydığı ən son rəsmi məlumatda bildirib ki, vəziyyəti yaxşı olan 22 nəfər, təkrar müayinələrə cəlb olunması şərti ilə, ambulator yardım göstəriləcək evə buraxılıb:** “22 nəfər yenidən müayinələrə cəlb olunub. Onlardan 1 nəfəri ürəkbulanma diaqnozu ilə xəstəxanada saxlamaq məsləhət görülüb. Həmin şəxsin heç bir həyati təhlükəsi yoxdur. Müxtəlif bədən xəsarətləri alan 8 nəfərə xəstəxanada lazımi səviyyədə tibbi yardım göstərilir. Onların da vəziyyəti sabitdir və palatalara köçürülüblər. Müxtəlif dərəcəli yanıq xəsarətləri almış 1 nəfər Respublika Yanıq Mərkəzinə yerləşdirilib ki, onun da vəziyyəti stabildir”.

**Qeyd olunub ki, xəsarət alanların vəziyyətləri səhiyyə nazirinin daim nəzarətindədir. Eyni zamanda səhiyyə nazirinin xüsusi tapşırığına əsasən, xəsarət alan və hadisə nəticəsində itkin düşmüş neftçilərin yaxınlarına psixoloji yardımın göstərilməsi üçün ilə psixoloqlardan ibarət briqada yaradılıb:** “Bu gün psixoloqlar yenidən Neftçilər Xəstəxanasında olublar, onlara lazımi yardım göstəriblər. Xəsarət alanların tezliklə sağalmaları üçün bütün zəruri addımlar atılır”.



**Dekabrın 7-də axşam saatlarında itkin düşən neftçilərdən 6 nəfərin cəsədinin tapıldığı məlum olub. Bu barədə keçirilən mətbuat konfransında çıxış edən SOCAR-ın rəsmisi Balamirzə Ağarəhimov məlumat verib:** “Axtarışlar nəticəsində 6 nəfərin cəsədi tapılıb. Onlardan iki nəfərin şəxsiyyəti bəllidir. Həmin şəxslər Tağıyev Fuad Tahir oğlu və Mahmudov Ağa İzzət oğludur. Bundan əlavə, xüsusi sualtı avadanlıqlar vasitəsilə axtarış işləri davam etdirilir”.

**Qeyd edək ki, hadisədə təxribat izinin olub-olmaması ilə bağlı müxtəlif versiyalar var. Rəsmi qurumlar təxribatın olmamasını israrla bildirsələr də, ən çox müzakirə olunan məsələ budur. SOCAR-ın vitse-prezidenti Rəhman Qurbanov mətbuata verdiyi açıqlamada faciə ilə bağlı danışarkən bu məsələyə də toxunub:** “İnanmıram ki, bu hadisədə təxribat olsun. Hər halda, Dövlət Komissiyası araşdırmalar aparır, nəticələr barədə ictimaiyyətə məlumat verəcək. Faciə baş verən ərazidə işlər aparılır. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları yanğının söndürülməsi üçün əllərindən gələni edirlər. Həm FHN, həm də bizim gəmilər tərəfindən itkin düşmüş insanların axtarışları da davam etdirilir”.

**ABŞ-da mühacirətdə yaşayan eks-spiker Rəsul Quliyev isə Rusiya donanmasının bu hadisədə təxribat edə biləcəyi ehtimalını istisna etmir:** “Bu hadisənin terrorçularla əlaqəsinin olması az inandırıcıdır. Amma belə bir işi Xəzər dənizinin hər güşəsində üzə bilən rus donanması asanlıqla edə bilər. Onların diversiya ilə məşğul ola bilən xüsusi akvalanq qrupları var. Türkiyənin baş naziri və Azərbaycan prezidentinin görüşündən sonra onların qaz kəməri inşaatının sürətləndirmək barədə verdikləri bəyanat Rusiyanı qıcıqlandıra və Azərbaycanı yüngülvari cəzalandırmaq fikrinə sala bilər. Mən özüm Rusiyanın belə bir işi görə biləcəyinə az inanıram, ancaq yoxlamaq pis olmaz. Sadəcə olaraq, qəza baş verməmişdən öncə o zonada hansı gəmilərin olması müəyyənləşdirilməlidir”.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Günəşli neft yatağında yanğın baş verən 10-cu Dərin Dəniz Özülünə gedib.

APA-nın məlumatına görə, nazir əraziyə baxış keçirib, özüldə yanğının söndürülməsi, habelə hadisə nəticəsində itkin düşənlərin axtarış tədbirləri ilə tanış olub.

SOCAR prezidenti Rövnəq Abdullayev də hadisə yerində yaradılmış operativ qərargahda olub.

**Hadisə ilə bağlı yaralılara dövlət səviyyəsində xüsusi diqqət ayrılır. Dekabrın 7-də baş nazirin müavini Əli Əhmədov yaralıları ziyarət edib. O, bildirib ki, itkin düşənlərlə bağlı çox üzgündür:** “Buradakı xəstələri ziyarət etdim. Onların səhhətində heç bir ciddi problem yoxdur. Hesab edirəm ki, yaxın günlərdə evlərinə buraxılacaqlar. Baş verən hadisə hamımızı çox üzdü. Əsas da bizi üzən itkin düşənlər, dünyaları dəyişənlərdir. Cənab prezident də hadisə ilə bağlı bir günlük matəm elan etdi. Hesab edirəm ki, bu, çox düzgün qərar idi”.

Həmin gün bir sıra deputatlar da yaralılara baş çəkiblər.

Dünya ölkələrinin rəhbərlərindən, həmçinin ölkəmizdə fəaliyyət göstərən səfirliklərdən başsağlığı məktubları Azərbaycan prezidentinin və xalqının ünvanına gəlməkdə davam edir.

Başsağlığı verən ABŞ səfiri Robert Sekuta hadisənin böyük faciə olduğunu bildirib.

Həmçinin bu günlər respublikanın məscidlərində faciə qurbanları yad ediləcəklər. Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadə Günəşli yatağındakı neft platformasında baş vermiş güclü yanğınla əlaqədar həyatını itirən neftçilərə rəhmət diləyib, onların ailələrinə, yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib.

Onu da qeyd edək ki, hadisə zamanı itkin düşən və yaralanan neftçilərin ailələrinə dövlət səviyyəsində yardım ediləcək. Bu barədə mətbuata SOCAR-ın rəsmisi Xaliq Məmmədov məlumat verib.

Qəzet çapa gedərkən itkin düşən neftçilərdən hələ ki 6 nəfərin cəsədi tapılmışdı.

Xatırladaq ki, Xəzər Dənizinin Günəşli yatağında faciə dekabrın 4-də saat 17:40 radələrində baş verib. Güclü külək nəticəsində baş verən yanğın zamanı platformada 63 neftçi olub. Onlardan 33-ü xilas olunsa da, qalanları mümkün olmayıb. Hazırda itkin düşən neftçilərin axtarışları davam edir.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015

## Sabiq MTN şefi nazirləri necə işdən çıxardıb-şok adlar

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qudası, Beynəlxalq Bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin həbsi hətta “Günəşli” yatağında baş vermiş ağır faciənin fonunda belə diqqətdən kənarda qalmadı. Azərbaycan hakimiyyəti daxilində hədsiz səlahiyyət sahibinə çevrilmiş qudalardan birinin həbsə göndərilməsi Eldar Mahmudovun ev dustaqlığında çox qalmayacağı, tezliklə ona da Kürdəxanı təcridxanasında “yer veriləcəyi” haqda xəbərləri artırıb.**



# Eldar Mahmudov qudasının yanına göndərilir - gəlişmə

### MTN rəhbəri 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhd ittihamı ilə həbs edilən “prezident Əli İnsanovun baş naziri” kimi Əvəz Ələkbərovun adını çəkib və karyerasını bitirib; Misir Mərdanov haqda da kompromatlar varmış; iqtidar komandasında sabiq MTN şefinin həbsini istəyənlərin sayı niyə çoxdur?

Məlumata görə, E.Mahmudovun həbsi üçün kifayət qədər sübutlar artıq istintaqda var. C.Hacıyevin işdən çıxarılandan 9 ay sonra həbs edilməsi onu göstərdi ki, qudalar vəd etdikləri, daha doğrusu, dövlətdən mənimsədikləri pulu qaytara bilməyiblər. Bəzi mənbələr bu vəsaitin 2-8 milyard manat civarında olduğunu deyir. C.Hacıyev hələ mart ayında işdən çıxarılanda və bank vəsaitinin mənimsənilməsində E.Mahmudovun da şərikliyi üzə çıxdıqdan sonra nazir qudasını həbsdən bir şərtlə qoruya bilmişdi: mənimsənilən pullar qaytarılacaq. Amma zaman keçdikcə E.Mahmudov bandasının MTN-də törətdiyi cinayətlər də aşkar oldu ki, bu da qüdrətli daha bir qudanın da vəzifədən çıxarılması ilə nəticələndi.

Məlumatlara görə, E.Mahmudovla C.Hacıyev, sadəcə, quda olmayıblar, onlar bu qohumluqdan illər öncə bütün bizneslərini, gizli sirlərini bölüşüblər, bir-birilərinə informasiya dəstəyi verərək milyardlara sahiblənibləр. E.Mahmudov ona geniş maliyyə kanalları yaratmış C.Hacıyevə “borclu qalmayıb”. O, C.Hacıyevin iqtisadi komandada rəqiblərini ən müxtəlif üsullarla işdən qovdurub, şantaj edib və susdurub.

**Onlardan biri də sabiq maliyyə naziri Əvəz Ələkbərovdur. Təsadüfi deyil ki, E.Mahmudovun istefasından sonra Ə.Ələkbərov bunu açıq etiraf edib. O deyib ki, Eldar Mahmudov nazir olandan sonra komandanın içində çaşqınlıq yaradıbmış.** “Eldar Mahmudov öz maraqları çərçivəsində kimisə qabağa çəkdi, kimisə zərbə vurdu, kimisə diz çökdürdü. O, hakimiyyətdə olduqca təsirli idi. Onun kəsdiyi başa sorğu-sual yox idi. Hamı ondan çəkinirdi”.

1999-cu ildən maliyyə naziri olan Ə.Ələkbərov 2006-cı ilin aprelində işdən çıxarılıb. Xəbərlərə görə, E.Mahmudov nazirin Qərbi Azərbaycandan olmasından istifadə edərək onun haqqında kompromatlar toplayıb. E.Mahmudov onu 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhd ittihamı ilə həbs edilən “prezident Əli İnsanovun baş naziri” kimi təqdim edib. MTN-də hazırlanan dosyeyə inandırıcı dəlilər qoyulub, nazirin Əli İnsanovla restoranlarda görüşdüyü və sair kimi faktlarla “zənginləşdirilib”. Qeyd etdiyimiz kimi, E. Mahmudov hələ C. Hacıyevlə qohum olmasa da, “Qara kəmər” əməliyyatından sonra onlar arasında ciddi dostluq münasibətləri yaranıb. Maliyyə Nazirliyi də Beynəlxalq Bankın dövlətə məxsus səhmlərinə cavabdeh olduğundan Ə. Ələkbərov C. Hacıyevə ciddi nəzarət edirmiş. İşə E. Mahmudov qarışdıqdan sonra Ə. Ələkbərov vəzifədən uzaqlaşdırılıb.

2006-cı ildə yeni hakimiyyətin dizləri hələ tam bərkiməmişdi və bu səbəbdən də E. Mahmudovun bu kimi məlumatlarının yuxarılarda “ciddi təhlükə” kimi qarşılanması təbii idi. Üstəlik, iddialar var ki, MTN şefinə həm də komandada “göz-qulaq” olmaq göstərişi də varmış ki, E. Mahmudov da bu tapşırığı öz şəxsi ambisiyaları hesabına həyata keçirib. Onun ən qüdrətli hakimiyyət adamları ilə üz-üzə gəlməsinin səbəbləri sırasında şübhəsiz ki, iqtidarın ən yüksək təpəsində etimad limitinin də rolu olub.

Hakimiyyət daxilindəki regional qruplardan xəbərdar olan mənbəmiz deyib ki, E.Mahmudov hər zaman “qərbi azərbaycanılara” az qala düşmən kimi münasibət göstərirmiş, onların hakimiyyətdən getməsinə çalışırmış. Ehtimal edilir ki, təhsil naziri Misir Mərdanovun da postundan uzaqlaşdırılmasında E.Mahmudovun ciddi rolu olub. Nazirin işdən çıxarılmasından sonra onun Bakıda indiyədək bilinməyən obyektlərinin üzə çıxması və bu məlumatların mediaya ötürülməsində də MTN-in əli olduğu hələ o zaman da şübhə doğurmurdu.

C.Hacıyevin iqtisadi komandada güclü rəqiblərindən olan Mərkəzi Bankın rəhbəri Elman Rüstəmovun da sıradan çıxarılması üçün qudalar ciddi cəhdlər ediblər. C.Hacıyev E.Mahmudovun otağında Hacı Məmmədovla şəxsən görüşüb və ondan Zamirə Hacıyevanın oğurlanmasında E.Rüstəmovun da əli olduğuna dair ifadə verməsini istəyib. Mərkəzi Bank sədri haqda bəzi kompromat materiallar, məsələn, bir neçə il əvvəl bankdan bir neçə maşın pulun çıxarılıb yandırılması haqda xəbərlərin də MTN mətbəxində hazırlandığı deyilir. C.Hacıyevin işdən çıxarıldıqdan sonra isə Mərkəzi Banka rəhbər gətiriləcəyi deyilirdi. Bu o ərəfə idi ki, Mərkəzi Bank sədri növbəti 5 il müddətinə parlamentdə təsdiqlənməli idi. E.Mahmudov qudasının işdən çıxarılması ilə barışırmış və bunun üçün hətta prezidentin etimad göstərdiyi baş bankiri belə hədəfə almaqdan çəkinmirmiş.

**E.Mahmudovun nazirlərə qarşı müharibəsini təsdiqləyən daha bir məlumatı ölkə.az saytı yayıb. Ziya Məmmədovun “vurulması” ilə bağlı yazıdan bəzi sitatlara diqqət edək:** “Mətbuatın yaydığı məlumatlar - hətta beynəlxalq əhəmiyyətli avtomobil yollarının da keyfiyyətsiz çəkilməsi, milyardlarla dövlət vəsaitinin düzgün xərclənməməsi və mənimsənilməsi, nazirin əvvəllər birini də buraxmadığı rəsmi tədbirlərdə görünməməsi və s. barədəki qalmaqallı əhvalatlar Ziya Məmmədovun karyerasının tezliklə başa çatacağına dair mülahizələr irəli sürməyə əsaslar verirdi. Kiminsə ”güclü əli” ilə belə bir ictimai rəy yaradılırdı ki, nazir bacarıqsız adamdır, əlindən heç bir iş gəlmir, amma öz qulluq mövqeyindən yaxşı istifadə edə və büdcə pullarını öz şəxsi məqsədləri üçün xərcləyə bilir”. **Sonra isə Bakıda keçirilən Avropa Oyunları zamanı baş vermiş məlum qəzaya diqqət çəkilir:** “Nəqliyyat Nazirliyinin xaricdən baha qiymətə aldığı avtobusların biri yarışların elə ilk günündəcə bir qrup idmançını vurdu. Nəticədə üç avstriyalı idmançı qız xəsarət aldı. Bundan əlavə, nazirliyin əməkdaşları bu hadisəni videolentə alaraq həmin kadrları öz keçmiş həmkarlarının köməyi ilə dünya mətbuatına ötürdülər. Eldar Mahmudovun nəzarət və idarə etdiyi ictimai rəy institutları barmağını yenə o qədər də populyar olmayan Ziya Məmmədova doğru tuşladı. Halbuki Avropa Oyunları zamanı təhlükəsizliyin qorunmasına ilk növbədə Eldar Mahmudov cavabdeh idi. Yaxşı, bəs MTN bundan əvvəl yol qəzasına görə məhkumluq həyatı yaşamış bir sürücüyə avtobus sükanının etibar olunmasına necə yol vermişdi? Bunu necə gözdən qaçırmışdı? Nəticə isə bəllidir: nazir töhmət almadı, amma ona Avropa Oyunlarının əksər təşkilatçılarının layiq görüldüyü mükafatdan da verilmədi”.

***

Məlumatlara görə, iqtidar komandasında sabiq MTN şefinin həbsini istəyənlər sayı çoxdur. E.Mahmudov zamanında onların bəzilərini hətta kabinetinə belə çağırtdırıb, hədə-qorxu dilində danışıb. Məhz bu qrup sabiq nazirin hələ də evində olmasını qəbullana bilmir. E.Mahmudovun həbsi üçün Prezident Administrasiyasının da ciddi səy göstərdiyi xəbərləri var. Belə görünür ki, E.Mahmudovun həbsinə görə hakimiyyət özünə yeni “antimahmudovçu cəbhə” açmaq istəməyəcək və yaxın günlərdə sabiq nazir də Kürdəxanıya göndəriləcək.

❑ **“Yeni Müsavat”**

# Məktub yetişdi



**Çingiz ÖZGÜR**

“ -Səfər! Səfər! Qurban ipi tərpədir. Səfər və Tanrıverdi tez quyunun ağzına yüyürdülər. Başlarını aşağı dikərək baxırkən, quyu içində partlayan qazın gurultusundan diksinib çəkildilər. Hər ikisi həyəcanlı bir səslə:
- Allah özü bağışlasın. Qurban da belə getdi,
- deyə fəryad qopardılar".

**Abdulla Şaiq “Məktub yetişmədi”**

***

**Neft sənayesi haqqında istər sovet vaxtı üçün, istər sovetdən öncəki dövr üçün çoxlu elmi kitablar, bədii əsərlər, romanlar yazılıb. Amma heç biri vəziyyəti Abdulla Şaiqin bu kiçik hekayəsində olduğu qədər çılpaq və tam göstərə bilməz, məncə. Şiddətlə tövsiyə edirəm, bir daha oxuyun o hekayəni. Günümüzün dərdi var, bir əsr əvvəlin hadisələrindən bəhs edən o balaca hekayədə. Bircə cümlə ilə nələr deyib görün, rəhmətlik : “Bax, bu yerlərin hər guşəsinə ayaq bassan, hər ovuc torpağına qazma vursan, işçi sümüyü görərsən, işçi fəryadı eşidərsən...”**

İllər keçib, di gəl dərd eyni, “qurban”lar eyni. Faciənin sonuncu olmasını çox arzulayırıq, amma çətin. Tam bir əsr əvvəldən bəhs edən hekayə və günümüzdəki hadisə göstərir ki, faciənin sonuncu olacağını deməyimiz, yaxını rəhmətə getmiş adama “ son qəmin olsun” təsəllisi vermək kimi bir şeydir.

Mövzu sosial şəbəkələrdə o qədər müzakirə olundu, o qədər sözlər yazıldı və yazılır ki, adam çətinlik çəkir nəsə yazmağa. Dərdin böyüklüyü, itkin düşmüş sayılan insanların (meyitinin) hələ də tapılmaması adamı o qədər sıxır ki, yazdıqca dayanıb, “bəlkə heç lazım deyil?” soruşursan özün-özündən...

Türkiyədə Soma faciəsi baş verəndə, Quzey Kıbrısda universitetdə müəllim işləyən, dostum, dəyərli ziyalımız Nazim Muradoğlu inboxuma yazdı. “ Ay Çingiz, neçə gündür Usta Şıxəlini düşünürəm. Bilirsən niyə? Ustanın atası da kömür mədənində işləyirmiş, onlar o vaxt Orta Asiyada yaşayanda. Özü danışıb mənə. Deyirdi, ”hər gün gedib mədənin qarşısında atamın işdən çıxmasını gözləyirdim. Bir gün nə qədər gözlədimsə, gəlmədi. Sən demə, qəza baş verib, atam içəridə, uçqunun altında qalıb. Neçə gün sonra çıxardılar. Çıxarana kimi evə yatandan yatana gedirdim. Qalan bütün günü mədənin qarşısında atamı gözləyirdim...

Atasının dəfn edildiyini öz gözü ilə görsə belə, balaca Şıxəli günlərlə gedib, fəhlələr işdən çıxan vaxtı mədənin qarşısında dururmuş. Gözləyirmiş..."

Kövrəlmişdi Nazim hoca. Deyirdi, gör indi nə qədər uşaq hər gün o mədənin qarşısında atasını gözləyəcək. Üç gündür ki, mən də eyni şeyi düşünürəm. Amma bu dəfə vəziyyət o mənada da fərqlidi. Hələ də öldüsündən ya qaldısından xəbər tutulmayan insanları hansı səmtdən gözləyəsən? Dörd tərəfi su ilə əhatələnmiş iş yerinin qarşısımı var? Ümid edib gözləməkçün belə yerləri yoxdur o balaların...

Uşaqlıq yaddaşımda qalan, gördüyüm ilk yanğın hadisəsi bir qohumumun “Ural” markalı maşınına yüklənmiş ot dərzlərinin elektrik naqillərinə dəyməsi ilə baş vermişdi. Maşın kəndin yuxarısında, fermanın həyətində yanırdı. Kənddə kimin əlinə nə qab, qacaq keçirdisə, su ilə doldurub, üzü yuxarı qalxırdı. Di gəl, qalxıb gördük ki, alovlara yaxın getmək mümkün deyil. Onda hamı deyirdi ki, yanğının sudan aralı olması da bir dərddir. Amma sən demə, suyun içindəki yanğın ondan da böyük dərd imiş.

Bütün uşaqlığımız o yanmış «Ural» maşını içində oynamaqla keçdi. Yanmış, istifadəyə yararsız əşyadan gələn iy elə o vaxtdan burnuma dolub sanki. O iy həm ölümün, həm də həyatın iyi idi . Sonuncu dəfə o iyi bu ilin may ayında Binəqədidə yanmış binadan sağ qurtarmış dostumu qucaqlayanda hiss etdim. Özünə də dedim. “Səni qucaqlayanda sanki həm ölümü, həm də həyatı qucaqladım”- dedim. Üç gündür yenə o iy burnumdadır...

***

“- Molla, əvvəlcə məndən uşaqların anasına salam yaz, - dedi. - Yaz ki, Anaxanımın, Məmişin gözlərindən mənim əvəzimdən öpsün, onlardan göz-qulaq olsun. Sonra yaz ki, mən də, şükür Allaha, sağ və salamatam...”. Bu sözlər elə həmin hekayədə, Qurbanın evlərinə göndərməkçün mollaya yazdırdığı məktubun ilk cümləsidir. “Sağ və salamat” olduğunu uşaqlarının anasına xəbər vermək istəyən, neft qurbanının yetişməyən məktubunun.

***

“Uşaqları sənə tapşırıram...”- bu isə, başımıza gələn , hələlik son neft faciəsinin qurbanlarından birinin həyat yoldaşına yazdığı mesajdır.

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015



# Ucuz sensasiya dalınca qaçanda...

Samir SARI

**Dünən baxıram ki, sosial şəbəkədə fəalları Xoşbəxt Yusifzadəni də xoşbəxt eləyiblər. Sözün düzü, bu xüsusda ilk paylaşımı görəndə mən də öz-özümə dedim ki, görəsən, ağsaqqal kişi sinninin bu vaxtında niyə belə danışıb. Sonra ikinci, üçüncü paylaşımları oxudum, gördüm, yox, məsələ qələmə, klaviaturaya verildiyi kimi deyil.**

Məlum oldu ki, ağsaqqal mütəxəssisimiz “Günəşli” neft yatağında baş verən faciədə yer alan insan itkisinə vaysınıb, təəssüflənib, sonra maddi itkiylə bağlı suala da dəqiq bir cavab verib, deyib, maddi itkimiz də bu qədərdir.

Pəh! Yazığı sosial şəbəkədə itdən alıb itə vermirdilərmi? Heç demə, hansısa qərəzsiz, vicdanlı, obyektiv jurnalist cənab Yusifzadənin fikrinin əvvəlki hissəsini yox, maddi itkiyə görə hayfıslanmasını xəbər edib və bu, həssas camaatımızın incə damarına toxunub.

Necə yəni, orda o qədər insan həlak olub, itkin düşüb, ağsaqqal da mazut, qaz itkisindən danışır. Cəhənnəm olsun neft də, qaz da! Xalqımız haqlı olaraq böylə fikirləşərək, insan həyatını maddi sərvətlərdən üstün tuturdu. Çünki deyilənə görə, insan həyatı hər şeydən üstündür, ümumiyyətlə ən böyük sərvət insandır.

Həqiqətin necəliyindən asılı olmayaraq, bir xeyli insan Xoşbəxt Yusifzadənin şəxsində məmurları söyüb-yamanlayandan sonra o söhbətin yer aldığı brifinqdə iştirak edən jurnalistlər yazı, xəbər, status, şərh yazıb bildirdilər ki, o kişi elə söz deməyib, belə deyib, burda da ilişəsi bir şey yoxdur.

Düşünmək olardı ki, mübahisə qurtardı, həqiqət ortaya çıxdı, ahıl mütəxəssisin adının qarşısına düşən bu qara ləkə tezliklə təmizlənəcək.

Kimə deyirsən? Hiddət püskürmələri davam edir. Hər dəfə yeni-yeni feysbuk fəalları status yazıb Xoşbəxt müəllimi yamanlayırlar ki, o niyə belə deyib.

Hətta artıq gerçəyi meydana çıxaran, X.Yusifzadənin nəyi harda necə deməsini dəqiqliyi ilə yazan şəxslər də beziblər, prosesə etiraz etmirlər. Bir şeyi nə qədər yazmaq olar? Beləcə, o söz ağsaqqalın boynunda qalacaqmış kimi görünür.

Baxarsınız, o rəhmətə gedəndə də bir xeyli adam yazacaq ki, Xoşbəxt müəllim o vaxt faciə qurbanlarına saygısızlıq etmişdi, ona rəhmət düşmür.

İnsanların kütləvi şəkildə mətbuata - istər peşəkar, istərsə də sosial mediaya çıxışının olmasının da bu cür mənfi tərəfləri var. Yüzlərlə, minlərlə adam var ki, rəqib saydığı qüvvələrə minus gəlsin deyə istənilən sözü, dəbdə olan ifadəylə desək, kontekstdən çıxarıb yaymağa amadədir.

İndiyəcən belə şeylər çox olub və siyasi mübarizə, cılız intriqalar, boğuşmalar, qapışmalar davam etdiyi müddətdə elə də olacaq.

Bir bizdə deyil, dünyanın hər yerində belədir. Hər yerdə stəkanda fırtına, nəlbəkidə sunami yaratmağa çalışan jurnalistlər siyasilərin, məmurların ağzını güdürlər ki, biri bir quş buraxsın və bunlar onu yolub tabaka, qril eləsinlər.

Hətta həmişə korrekt danışan, təmkinli, ağzıbütöv məşhurların da təxribata çəkildiyi hallar olur.

Məsələn, bir dəfə Roma Papası İoann Pavel Parisə səfərə gəlir. Jurnalistlər bunu aeroportda qarşılayırlar və biri ona belə bir sual verir: “Papa həzrətləri, siz Parisin qırmızı fənərli küçəsinə (yəni fahişəxanalara) də baş çəkəcəksinizmi?”

Papa gözlənilməz sual qarşısında çaşır, sakitcə deyir, mən heç bilmirəm Parisdə qırmızı fənərli küçə varmı, yoxmu, hardadır.

Vəssalam. Ertəsi gün sensasiya dalınca qaçan qəzetlər bu və buna oxşar manşetlərlə çıxırlar: “Parisə qədəm basan Roma papası qırmızı fənərli küçənin harada olması ilə maraqlandı”. Di get!

Ancaq belə bir gerçək də var ki, ölkəmizdə məmurların hansısa fikrini kontekstdən çıxarmağa, hökumət adamlarının sevimli sözü ilə desək, ucuz sensasiya yaratmağa ehtiyac yoxdur. Onsuz da bir çoxları vaxtaşırı “quşlayır”lar, sadəcə, dediklərini olduğu kimi yazmaq kifayətdir. Həm də belə görünür ki, söhbəti audioyazıya və videolentə almaq lazımdır - sonradan dara-bara salıb “mən elə deməmişəm, jurnalist təhrif edib” deməsinlər deyə.

**Dekabrın 4-də “Günəşli” yatağının 10 saylı dərin dəniz özülündə faciə ilə nəticələnən yangının başvermə səbəbləri ilə bağlı ictimaiyyətdə, sosial şəbəkələrdə müxtəlif fikirlər səslənməkdədir.**

# “Günəşli” faciəsində terror izi

## Zahid Oruc: “Bu hadisələr içərisində başqa xarakterli qüvvələr mövcuddursa, onlar siyasi meydandan çıxarılmalıdır...”



Bəzi şəxslər hadisəni regionda baş verən siyasi gərginliklərlə də əlaqələndirirlər. Hesab olunur ki, Türkiyə-Rusiya arasında iqtisadi savaşın başlanması, boğazlarda, eyni zamanda Xəzərdəki strateji kəmərlərə qarşı əməliyyatların başlanmasına səbəb olub. Həmçinin hadisəni terror kimi qələmə verənlər də az deyil.

Bəs son hadisənin “MTN işi”, yaxud yuxarıda söylədiyimiz arqumentlərlə hansısa əlaqəsi ola bilərmi?

Məsələ ilə bağlı musavat.com-a danışan Milli Məclisin **Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc** öncə bildirdi ki, dünyada baş verən terror, müharibələr və digər bu kimi halların fonunda insanların bir çoxunda dəqiq inam var ki, təbiət hadisələri də eyni siyasi hadisələrlə sinxron formada baş verir: “Ona görə də qeyd edilən versiyalar bu xüsusda meydana çıxır. Ancaq onu iddia etmək üçün konkret faktlara dayanmaq lazımdır. Bu gün dövlətin başlatdığı böyük dəyişikliklər və xüsusilə də idarəetmə sistemində cinayətkarlığa qarşı kəskin mübarizə fonunda bir çox insanlarda gözləntilər var ki, ölkədə müxtəlif ictimai toqquşmalar, sosial qəsdlər baş verə bilər. Çünki tarixən belə olub. Xüsusilə də xəfiyyə sistemi ilə bağlı məsələ, heç vaxt çox sadə bir şəkildə kimlərinsə istefaya göndərilməsi ilə məhdudlaşmayıb. Onların tam zərərsizləşdirilməsi müəyyən zaman aparıb. Ona görə ki, şaxələnmiş sistemə malik olublar. Ancaq ”Günəşli" yatağında baş verən hadisənin sırf terror olması və bunun Azərbaycanın daxili qüvvələrinin hakimiyyətə siqnal verməsi kimi qiymətləndirilməsini doğru saymıram. Bununla bərabər, göründüyü kimi, hadisə ilə bağlı yaradılmış komissiyanın tərkibinə təhlükəsizlik orqanlarının da nümayəndələri daxil edilib".

**Z.Oruc qeyd elədi ki, faciənin xarici və ya daxili qəsd olmasından asılı olmayaraq, nəzərə almalıyıq ki, bu gün hakimiyyəti əsaslı və ya əsassız hədəfə çevirən çoxsaylı qüvvələr meydana çıxıb:** “Nə Nardaranda baş verən hadisələr, nə də bəhs etdiyimiz faciə Azərbaycan dövlətini qarşısına qoyduğu məramdan, yeni dəyişikliklər planlarından çəkindirməməlidir. Çünki şahidi olduq ki, bəlli strukturlara nə ictimai, nə parlament nəzarətinin ola bilməməsi səbəbi ilə cinayətlər hansı miqyasda meydana çıxa bilir. Bunlar dövlət idarəetmə sistemini bir sıra hallarda ağır zərbələr qarşısında qoyurlar. İctimai etibarı zədələyib, vətəndaş maraqlarına zərbə vururlar. Bu fonda dövlət və insanlar arasında yaranmış uçurumda kimlərsə öz mənafelərini sürdürə bilir. Ona görə də ümumidvaram hər kəs fərqindədir ki, ölkə başçısı nə qədər böyük məsuliyyəti və ağrıları öz üzərinə götürdüyünü hiss elətdirir. Ancaq cənab prezidentin dəsti-xəttinə bələd olanlar bilir ki, onu öz yolundan daşındırmaq mümkün deyil. Bu hadisələr içərisində başqa xarakterli qüvvələr mövcuddursa, o adamlar Azərbaycan hakimiyyətinin və dövlət başçısının əli ilə siyasi meydandan çıxarılmalıdırlar. Bu dəyişikliklər də qaçılmazdır”.

**Deputat ölkə başçısının çox böyük xəyanətlərə dözümlə yanaşdığını dedi:** “Hamımız bunun fərqindəyik. Təsəvvür etmək çox çətindir ki, bir liderin öz komanda üzvlərinə verdiyi geniş səlahiyyətlər, etimad qarşılığında onların bu cür hərəkətləri, onun tərəfindən necə qəbul olunur. Hər birimizə bəllidir ki, bu çox ağrılı bir prosesdir. İstənilən rəhbər üçün bu o qədər də həzm olunası məsələ deyil. Ona görə də hamı müxtəlif ictimai hadisələrin bütün risk və ağrılarının birinci şəxsin üzərinə düşməməsi üçün öz vətəndaş mövqeyini göstərməlidir. Görünən budur ki, xalq prezidentin bu addımlarının arxasındadır”.

❑ Əli RAİS

# Şeyxin işarə vurduğu “xarici qüvvə” kimdir?

## QMİ rəsmisi onun fikrini şərh eləmir; **Fazil Mustafa:** “O elə bu cür deməli idi...”

**“Nardaran hadisələri”, orada aparılan əməliyyat barədə ictimaiyyətə geniş açıqlama verilməsə də müəyyən detallar açıqlandı. Məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə mətbuata bildirdi ki, Nardaranda baş verən hadisələrin kökləri çox uzaqdan, xaricdən gəlir.**



Allahşükür Paşazadə

**Sitat:** “Lakin xaric deyəndə qonşu dövlətləri nəzərdə tutmaq lazım deyil. Bu gün nə İran, nə də Türkiyə Azərbaycanda iğtişaş yaratmaq tərəfində deyil”.

İctimaiyyətdə isə Nardaranda baş verən hadisələrin məhz İrandan idarə olunması ilə bağlı fikirlər səslənirildi. Göründüyü kimi, Şeyx burada İranın əlinin olmadığını bəyan edib. O zaman QMİ sədri “xarici qüvvə” dedikdə kimə mesaj verib?

Məsələ ilə bağlı QMİ təmsilçisi **Qəmər Cavadlının** fikrini almaq istədik. Q.Cavadlı musavat.com-a açıqlamasında söylədi ki, Şeyxin nə demək istədiyini onun özü bilir: “O, bu hadisələrlə bağlı nə söyləyibsə, mən də onu deyirəm. Onun fikirlərindən başqa deyəcəyim yoxdur”.

**Deputat Fazil Mustafa isə bildirib ki, Şeyx məhz bu cür açıqlama verməlidir:** “Dövlətlərarası münasibətlərə görə əldə sübut yoxdursa, birbaşa burada İranın əlinin olduğunu söyləmək çətindir. Ancaq bir məqam da var ki, İranın müxtəlif deputatları, şəbəkəsi tərəfindən Nardaran hadisəsi müdafiə olundu. Bu isə özü göstərir ki, konkret olaraq İran dövlətinin burada qeyd etməsək də, oradakı bir sıra qüvvələrin Azərbaycanın qarışdırılması siyasətinə dəstək verməsi ortadadır. Bu baxımdan da qeyd etdiyim kimi, Şeyx bu cür mövqe göstərməlidir. Elə dövlət rəsmiləri, biz özümüz də təqribən bu cür ifadələr işlədirik”.

**F.Mustafa hadisələrdə Türkiyə faktorunun nə dərəcədə olmasına da toxunub:** “Türkiyədən hansısa dəstək olduğu düşüncəsində deyiləm. Çünki Türkiyədə xüsusi olaraq bu motivlə kiminsə dəstəklənməsinə ehtimal vermirəm. Siyasi xarakterli olsaydı, o zaman nə isə söyləmək olardı. Burada sırf dini məqamdır. Ona görə də hadisələrin İranın bəzi qüvvələri ilə əlaqəsi şübhəsizdir. Sosial şəbəkələrdə də bu hadisələri dəstəkləyənlərin böyük əksəriyyəti öz profillərində əsasən İran ruhanilərinin təbliğatını aparırdılar. Bu da hadisələrin bir mərkəzdən idarə olunması şübhəsini meydana çıxarır”.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015

# AXCP adı uğrunda məhkəmənin günü müəyyənləşdi

**Azərbaycan Xalq Cəbhəsi Partiyası daxilində aylardır davam edən qarşıdurma artıq yeni mərhələyə qədəm qoyub. Ədliyyə Nazirliyinin qurum daxilindəki Razi Nurullayev və Əli Kərimli qanadını AXCP kimi tanımamasından sonra tərəflər məhkəməyə müraciət ediblər.**

Artıq məhkəmənin günü bəlli olub. Bu ayın 28-də 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində ilkin hazırlıq iclası keçiriləcək.

Bu barədə müsavat.com-a yeni **AXCP-nin sədri Razi Nurullayev** məlumat verib: "Hazırda partiyanın indiki durumu, ictimai rəydə yeri, Ədliyyə Nazirliyinin cavabı və qarşıda duran məhkəmə ilə bağlı heç bir narahatçılığımız yoxdur. Partiya quruculuğumuz davam edir. Gördüyümüz işlər göz qabağındadır. Siyasi fəallığımızı davam etdiririk. Təbii ki, biz hər şeyin qızıl məcməyidə qarşımıza gətirilməsinin tərəfdarı deyilik. Siyasətdə olanların əksəriyyəti çətinliyə öyrəşmiş insanlardır. Biz inanırıq ki, nə qədər ağır olsa da məhkəmə prosesini uğurla aparacağıq. İstədiyimizə nail olacağıq. Buna zərrə qədər şübhəmiz yoxdur. Deyilən məsələlərin heç biri biz də narahatçılıq yaratmır. Yaşadığımız bəzi problemlərlə yanaşı ciddi uğurlarımız da var. Qısa zaman kəsimində ölkədə bir nömrəli siyasi qurum olmağı bacardıq. Bu gün də proseslərimiz davam edir. Cəmiyyətə ciddi mesajlar verə bilirik. Əvvəllər köşə yazarları, bloggerlər yazılarında cəmiyyətin yeni simalara ehtiyacının olması barədə fikirlər səsləndirirdilər. Artıq fəaliyyətimizdən sonra cəmiyyət qəbul edib ki, siyasət yenilənməlidir. Hər kəs inanır ki, yeni nəfəs siyasəti gücləndirəcək.



Razi Nurullayev: “Əli Kərimli onsuz da partiyanı məhv etmişdi”

Bunun özü ciddi uğurumuzdur".

**R.Nurullayev cəmiyyət arasında AXCP-nin parçalaması ilə bağlı gəzən söz-söhbətlərə də toxundu:** “Əli Kərimlinin son illərə qədər rəhbərlik etdiyi AXCP-nin ölkəmizdə ən güclü siyasi partiya olması ilə bağlı səsləndirilən bəzi fikirlərdə həqiqətlər ola bilər. Çünki AXCP daim proseslərin önündə olmağa çalışan qurum olub. Amma partiyanın zəifləməsini və sıradan çıxmasını Razi Nurullayev təşkil etmədi. Onu Əli Kərimli bilərəkdən, ağlı başında olmaq düşüncəsi ilə verməş oldu. Çünki cəmiyyət yenilik istəyirdi. Digər siyasi partiyalarda dəyişikliklər olmuşdu. Müsavat Partiyasında İsa Qəmbər başqanlıqdan getmişdi. Orada cəmiyyət kifayət qədər maraqlı seçki prosesinin şahidi olmuşdu. Ondan öncə Etibar Məmmədov istefa vermişdi. Lalə Şövkət partiyadan getmişdi. Bundan əlavə, 2013-cü ilin prezident seçkilərindən sonra Sərdar Cəlaloğlu sədrlikdən getmək istəmişdi. Artıq cəmiyyətə bu çağırış var idi. Buna baxmayaraq, görünürdü ki, Əli Kərimli sədrlikdən getmək istəmir. Hər bir zamanda onun sədrlikdə qalmasına qarşı çıxan şəxsləri də bir-bir partiyadan uzaqlaşdırmağa başladı. Bu proses partiyanı çökdürdü. AXCP 10 sıra qabaqda idisə, hər çıxarılan şəxsə görə iki sıra geriləди. Sonda partiya sıfır vəziyyətinə gəldi. Bu fəlakətləri görərək biz meydana çıxdıq. Şükürlər olsun ki, partiyanı xilas edə bildik. Əli Kərimli onsuz da AXCP-ni məhv etmişdi. Biz yenidən şəkilləndirdik, formalaşdırdıq. Artıq partiya yeni formatda sürətlə inkişaf edir".

**Yeni AXCP-nin sədri bu ayın 28-də keçiriləcək məhkəmə prosesinə də toxundu:** “Məhkəmənin vaxtı artıq müəyyən olub. Bu ayın 28-də olacaq. Hüquqşünaslarımız prosesə ciddi hazırlaşırlar. Məhkəmə çəkişməsi bir müddət davam edə bilər. Yaxın bir neçə ayda bu məsələnin kökündən həllini gözləyirəm".

**Sonda Razi bəy dekabrın 8-də Beynəlxalq Mətbuat Mərkəzində insan hüquqları ilə bağlı keçirəcəkləri tədbirdən söz açdı:** “Dekabrın 8-də saat 12-də "Beynəlxalq İnsan Hüquqları Günü" ilə bağlı BMM-də dəyirmi masa keçirəcəyik. Bu gün bütün dünyada insan hüquqları günü kimi qeyd olunur. Tədbirdə Azərbaycanda insan hüquqları sahəsindəki vəziyyət, siyasi məhbuslar və söz azadlığı müzakirə ediləcək. Eyni zamanda İran, İraq və Suriyadakı soydaşlarımızla bağlı ümumi vəziyyət, türkmənlərin son durumu və Avropadakı miqrantlar məsələsi də geniş müzakirə olunacaq".

❑ Cavanşir ABBASLI

# Bəzi müxalif partiyaların rayon təşkilatı və özək sədrləri neftçidir

## Neft Daşlarında hansı partiyanın üzvləri işləyir?

**Xəzər dənizində Günəşli qaz yatağındakı 10 nömrəli platformada çoxlu sayda insanın həlak olması və yaralanması ilə nəticələnən faciəvi hadisəyə görə ölkənin əksər müxalif siyasi partiyaları mövqe bildiriblər və başsağlığı veriblər. Neft daşlarında işləyən minlərlə işçinin sırasında müxalifət partiyalarının hansının üzvlərinin olub-olmadığını da həmin partiyalardan xəbər aldıq.**

**KXCP sədri Mirmahmud Mirəlioğlu** Neft Daşlarında KXCP üzvlərinin işlədiyini bildirdi: “Vaxtilə Azərbaycan Xalq Cəbhəsi dönəmində bizim Neft Daşlarında böyük bir şöbəmiz var idi. O şöbənin üzvlərinin bir çoxu bu gün KXCP-dədir və həmin yerdə işləyirlər. Onlar iki həftə dənizdə olurlar, iki həftə sahildə. İş rejimləri növbəlidir. Dənizdə işləyənlər üçün risklər həmişə olub və heç kim belə faciələrdən sığortalanmayıb. Allah hifz eləsin. Mən Günəşli yatağındakı faciədə həlak olanlara Allahdan rəhmət, onların ailələrinə, yaxınlarına səbr diləyirəm”.

**ADP sədri Sərdar Cəlaloğlu partiyasının üzvləri sırasında Neft Daşlarında işləyən olmadığını dedi:** “Vaxtilə işləyənlər olub. Lakin hansı partiyanın üzvü olduqları bilinən kimi işdən çıxarılıblar. Azərbaycanda belədir ki, müxalifət partiyalarının üzvlərinə işləmək üçün imkan verilmir. Ona görə də hazırda bizdən Neft Daşlarında işləyən yoxdur”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, rəhbərlik etdiyi partiyanın üzvlərindən Neft Daşlarında işləyən yoxdur.

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev isə dedi ki, Neft Daşlarında işləyən bir VİP üzvü var:** “Mənim yox, digərlərinin vaxtaşırı əlaqəsi olur. Səhv etmirəmsə, adı Fərahim Qasımovdur. Növbəli rejimdə 15 gündən bir sahildə olur”.

AMİP baş katibi isə qeyd etdi ki, hazırda Neft Daşlarında işləyən AMİP üzvü yoxdur.

Müsavat Partiyasının təşkilati işlər departamentinin rəhbəri Zöhrab Məhərrəmli bildirdi ki, əvvəllər Müsavatın Neft Daşlarında 30 nəfərdən çox üzvü işləyirdi və onlar özək yaratmışdılar. İndi onların bir çoxu hələ də işləyir.

**Vətəndaş Həmrəyliyi Partiyasının Aparat rəhbəri Samir Əsədli bildirdi ki, beş VHP üzvü Neft Daşlarında işləyir:** “Onlardan iki nəfəri VHP-nin Bakıdakı iki rayon təşkilatının sədridir. Bir nəfər rayon təşkilatı sədrinin müavinidir, iki nəfər isə sıravi üzvdür. Günəşli qaz yatağındakı platformada faciə baş verdiyi barədə xəbər yayılan kimi Neft Daşlarında işləyən beş partiya üzvümüzün hər biri ilə əlaqə saxladım. Bəlli oldu ki, həmin vaxt onların hamısı növbədə deyil. VHP-nin üzvlərindən biri əvvəllər həmin yanan platformada işləyib, sonradan onun yerini başqa platformaya dəyişdilər. Dənizdə işləmək riskli peşələrdən sayılır. Məlum hadisədən sonra hər partiyamızın həmin üzvlərinin, həm də bütün neftçilərimizin taleyindən bir narahatlıq keçiririk. Dövlət, aidiyyəti qurumlar platformalarda estakadaların keyfiyyətinə, dözümlülük gücünə diqqət ayırmalıdır. Sovet vaxtından qalan estakadalar yenilənməlidir”.

❑ Etibar SEYİDAĞA

# “Qarabağ klanı” ikinci nəfəs qazanır



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistanda 6 dekabr konstitusiya referendumu ilə prezidentli üsul-idarədən parlamentli üsul-idarəyə keçid baş tutdu. Rəsmi məlumatlara görə, seçicilərin 74,87 faizi dəyişikliklərin lehinə səs verib. Həmin dəyişikliklərə görə, bundan sonra baş nazir prezidentdən daha böyük səlahiyyətlərə malik olacaq, 7 illiyə parlament tərəfindən seçiləcək prezident isə ölkəni formal təmsil edən dövlət başçısı kimi qalacaq.**

Yeni konstitusiyaya görə, ölkənin ali icraçı orqanı - baş nazirin rəhbərlik edəcəyi hökumət olacaq. Hökumət dövlət idarəetmə sisteminin ümumi rəhbərliyini, daxili və xarici siyasəti həyata keçirəcək. Baş nazir isə prezident tərəfindən parlament seçkilərində qalib gəlmiş partiya və ya partiyalar blokunun üzvlərindən təyin olunacaq - yəni bir növ qonşu Gürcüstan və Türkiyədəki, həmçinin İsraildəki kimi.

Ancaq aydın məsələdir ki, Ermənistanın indiki prezidenti, sabiq prezident Robert Köçəryandan sonra “Qarabağ klanı”nın ikinci ən odioz fiquru sayılan Serj Sərkisyan bununla siyasətdən çəkilmək və yaxud öz klanı ilə birgə hakimiyyətdən uzaqlaşmaq, onu “yad ələ” təhvil vermək fikrində deyil. Əksinə, onun referendumdan öncə verdiyi yayğın açıqlamalar göstərir ki, Xocalı hərbi canisi məhz rejimin ömrünü uzatmağı hədəfləyib.

Sərkisyanın öz məqsədinə çatdığını, “Qarabağ klanı”nın ikinci nəfəs qazandığını söyləmək olar. Çünki 6 dekabr referendumu həm də hakim qüvvəyə qarşı bir etimad səsverməsi idi. Saxtakarlıqlara rəğmən, səsvermənin nəticələri elektoratın hər halda mövcud siyasi rəhbərliyə etimad bəslədiyini ortaya qoydu.

Bu, həmçinin, o anlama gəlir ki, erməni toplumu ölkənin Rusiyayönlü kursunun davam eləməsinə “hə” deyir. Azərbaycandan ötrü isə ilkin nəticə o mənaya gəlir ki, işğalçı ölkə Qarabağ məsələsində ənənəvi kompromissiz mövqeyini bundan sonra da saxlayacaq. Çünki Kremlin, konkret olaraq Putinin xeyir-duası olmadan Sərkisyan konstitusiya dəyişikliyinə gedib arzuladığı yekuna nail ola bilməzdi.

Belə qənaət hasil olur ki, Moskva Qarabağ məsələsində İrəvanın sərt ritorikasının qalmasında maraqlıdır. Nə demək olar bu xüsusda? Hələlik onu ki, Azərbaycanın 1 nömrəli təbii strateji müttəfiqi Türkiyə ilə Rusiyanın münasibətlərin kəskinləşməsi fonunda Kremlin belə bir marağı ikiqat məntiqli görünür, nəinki Ermənistanda daha mötədil siyasi qüvvənin hakimiyyət başına gəlməsində Moskvanın maraqlı olması.

Sözə baxan, müti Sərkisyan rejimi Kremli əlbəttə ki, tam qane edir. Referendumdan sonra isə Serj Sərkisyan nəzəri cəhətdən 2025-ci ilədək prezident kimi iqtidarda qalaraq (2018-ci ilə onun ikinci prezidentlik müddəti bitir) ölkə sükanına nəzarət imkanlarına, əsas fiqur olan baş nazirə, o cümlədən Qarabağ məsələsində mühüm təsir rıçaqlarına malik olacaq. İstəsə, asanca o, baş nazir də olacaq.

Bütün hallarda Ermənistan demokratik ölkə deyil ki, burada hakimiyyət bölgüsü konstitusiyadakı kimi real həyatda özünü göstərsin. Yəqin ki, çox şey həmişəki kimi Moskvanın iradəsindən və diktəsindən asılı olacaq. İş də ondadır ki, ölkədə prezidentli və ya parlamentli üsul-idarənin mövcudluğu hələ orada demokratiyanın, söz-ifadə azadlıqlarının oturuşması və təmin olunması anlamına gəlmir.

Dünyada o qədər prezidentli və parlamentli ölkələr var ki, orada insan haqlarının durumu aşağı səviyyədədir və ya əksinə. Məsələn, “demokratiyanın beşiyi” sayılan ABŞ da prezidentli ölkədir, müxalifətin mövcud olmadığı Şimali Koreya, Belarus, Özbəkistan da. Nümunə üçün çox uzağa getməyə lüzum yoxdur, özümüzə baxmaq da yetər...

YENİ MÜSAVAT
N 273 (6201) 8 dekabr 2015



# Geyilməyən şalvara yamaq

Zamin HACI
zaminhaci@gmail.com

"Bundan sonra yalançılar daha artıq pul, ipək, qızıl istədilər; onlar ancaq ciblərini doldururdular. Ortada bircə sap görünmürdü. Əvvəlki kimi, indi də boş dəzgah qabağında oturub, özlərini elə göstərirdilər ki, guya toxuyurlar".

**(Hans Kristian Andersen, "Kralın təzə paltarı")**

***

Son çağlar yapistlər bir çox qanunlara dəyişiklik eləməyə başlayıblar. Qıraqdan baxan elə zənn edər bunlar dəhşət qanunsevərdirlər, hər işi qanunla görürlər və zaman keçdikcə qanunlara əl gəzdirməyə ehtiyac duyurlar.

Təbii ki, belə deyil. Qanunlara dəyişiklik etmələri bir tərəfdən gözdən pərdə asmaq, guya hansısa iş görüldüyü təsəvvürü yaratmaqdan doğursa, başqa yöndən çıxılmazlıq əlamətidir. Dalana dirəniblər, avtoritarizmin "divarı qurtarıb", indi divar içində yeni divar hörürlər. İnsanların əl-ayağını qanunlarla bağlamaq istəyirlər. Qəfəsi daraldırlar. Ancaq qəfəs daraldıqca canavarların quzuları yemək imkanları nə qədər artsa da canavarların canavarları parçalamaq arzusu da artır, gərək bunu nəzərə alsınlar. Çünki qəfəs daraldıqca ov arealı da eynilə daralır. Eldar müəllimi belə yedilər.

Örnək üçün, Nardaran hadisələrindən sonra dini etiqad azadlığı qanununa gülünc dəyişiklik elədilər. Burda bir haşiyə çıxaraq yazım ki, ümumiyyətlə bu dini etiqad azadlığı qanunu bəlkə də Azərbaycanda ən çox dəyişikliyə məruz qalan qanundur. Mənim yadımda olanı, son 15 ildə bu qanuna bəlkə 150 dəfə dəyişiklik edilib. Ancaq bir zad əmələ gəlmir. Səbəb isə sadədir: hüquqi nihilizm. Əgər MTN-də banda fəaliyyət göstərirsə, məhkəmələr, oxuculardan üzr istəyirəm, "tras" zəhmətkeşləri kimi bir şeyə dönübsə, qanunu dəyişdirməyin nə mənası? Köhnə işləmirsə, təzənin nə xeyri? Elə bil əyninə geymədiyin şalvarı güvə yeyir, sən də onu yamayırsan, ancaq el arasına yenə lüt çıxırsan, yamaqlı şalvar şkafda qalıb yenidən güvələrə yem olur.

Təzə dəyişiklik xaricdə dini təhsil alan şəxsin dini tədbir qayırmasına icazə verilmədiyi haqdadır. Məntiqlə, Buxarada mollalıq oxuyan Allahşükür müəllim gərək bu dəyişiklikdən sonra istefa versin. O cümlədən hamı qanun qarşısında bərabərdirsə, Bakıdakı Katolik Kilsəsinin keşişi, Slovakiya vətəndaşı Vladimir Fekete dərhal ölkəmizdən çıxarılmalıdır. Ancaq bu da hamısı deyil. Əgər islam dini ərəb dilində, ərəb peyğəmbər tərəfindən yayılıbsa, indi sən Ərəbistanda oxuyub gələn mollanın ağzını necə bağlayacaqsan? Beynəlxalq konvensiyalara görə fikirlər, ideologiyalar sərhəd tanımadan yayılmaq haqqına malikdir. *(Əlbəttə, terror yayan ideolojidən, ekstremist ədəbiyyatdan söhbət getmir. Başa düşürəm ki, islama münasibətdə iqtidarın riyakar münasibəti var və çox şeyi öz adıyla çağırmaq sərf eləmir).* Korrupsiyanın kökünü kəsmək, qanunlara əməl edən dövlət qurmaq yerinə karikatur, dünyanın heç yerində olmayan qanunlar qayırırlar.

Bu qanun deputatxanada müzakirə ediləndə birinci vitse-spiker kreslosuna oturmuş Ziyafət Əsgərov demişdi: "Mən Nardaran hadisələrinə baxanda hərdən öz-özümə sual verirəm. Nə vaxtdan bəri məscid siyasi diskussiyalar klubu olub?!" Əsgərovun öz-özünə sual verməsi, əlbəttə, müsbət haldır, bir yapistin təkamül prosesində önəmli mərhələdir, ancaq bu adam dolayısı ilə etiraf edir ki, Azərbaycanda siyasi diskussiyalar qadağandır. Bəyəm bunun üçün xüsusi klublar lazımdır? Siyasi söhbəti eləməyin konkret yerləri var? Nədən məsciddə də siyasi söhbət olmasın? Bu nə mürtəce yanaşmadır? Görəsən, məscidin axundu futboldan danışmaq üçün AFFA-dan icazə almalıdırmı? Ümidvarıq növbəti qanun dəyişikliyi bu yöndə olacaqdır və məsciddə "Neftçi"yə azarkeşlik elədiyini deyən dindarlar zindana salınacaqdır.

Yapistlər Bakının böyründə özlərinə balaca bir cin, xoxan düzəltmişdilər və hərdən o cini çıraqdan çıxarıb onu-bunu qorxuzurdular. Son vaxtlar isə cin çırağa qayıtmaq istəmirdi, üstəlik, başqa ərazilərdən də özünə balaca cinbalalar yığırdı. Yaranan problem bundan başqa bir şey deyildi. İndi çırağı axırıncı dəfə silib-sürtüb, ağzını qanunla möhürləyib dənizin dibinə atıblar. Növbəti tufanda çıraq və cin hardan çıxacaq, bax, o maraqlıdır.

Sözgəlişi yazdım, maraqlanmağın təzə dəyişikliklə qadağan olunduğunu bilirəm.

# Rusiya Xəzərdən Azərbaycana və Türkiyəyə barmaq silkələdi

## Şimal qonşumuz Ankara ilə gərgin münasibətlər fonunda və Ərdoğanın Türkmənistan səfəri ərəfəsində dənizdə növbəti güc nümayişinə başlayıb; Xəzərin yeganə sahibi olmasını göstərməklə Kreml nə demək istəyir?..

**Rusiya Xəzər dənizində "əzələ nümayişi"ni davam etdirir. Dünən şimal qonşumuzun donanmasına məxsus gəmiləri akvatoriyada yeni hərbi təlimlərə başlayıb. Rusiyaya aid qaynaqların bildirdiyinə görə, təlimlər gəmilərin döyüş hazırlığı ilə bağıdır və hava hücumundan müdafiə xarakteri daşıyır.**

Geniş miqyaslı təlimlərdə 50 gəmi iştirak edir. Onların arasında "Tatarıstan" və "Dağıstan" raket gəmiləri, "Uqliç", "Volqodonsk", "Mahaçqala", "Həştərxan", "Qrad Sviyajsk" artilleriya gəmiləri də var. Yada salaq ki, məhz "Dağıstan" gəmisindən ötən ay İŞİD mövqelərinə iki dəfə qanadlı raketlər atılmışdı.

Əksər analitiklərə görə, həmin olay İŞİD-dən daha çox region ölkələrini, ələlxüsus Azərbaycan daxil, sahilyanı neft-qaz ölkələrini qorxutmaq, hədələmək niyyəti güdüb, eyni zamanda Türkiyə kimi regional güclərə hərbi müşkül göstərmək məramı daşıyıb.

***

Maraqlıdır ki, məhz həmin hadisədən az sonra Türkiyə Rusiyanı yerində oturacaq bir cəsarətli addıma getdi - qardaş ölkənin hava məkanını pozan "Su-24" hərbi təyyarəsini vurdu. Xəzərdəki son təlimlər də ən əvvəl "Su-24" insidentindən sonra Rusiya-Türkiyə münasibətlərinin xeyli gərginləşdiyi və prezident Vladimir Putinin Ankaraya ünvanlı hədələyici bəyanatlar səsləndirdiyi dövrə təsadüf eləməsi ilə diqqət çəkir.

Xatırladaq ki, Putin keçən həftəsonu Federasiya Şurasına etdiyi müraciət zamanı Türkiyəni yenidən və daha sərt şəkildə hədələmiş, "Əgər onlar düşünürsə ki, pomidorla, hansısa tikinti sektorunda məhdudiyyətlərlə canlarını qurtaracaqlar, möhkəm yanılırlar" demiş, ardınca "Biz nə edəcəyimizi yaxşı bilirik", "Onları öz hərəkətlərinə hələ çox peşman edəcəyik" tipli həqarətli ifadələr işlətmişdi. Rusiya prezidenti çıxışında belə bir hədələyici ifadə də işlətmişdi ki, "Cavabımızı başqa yollarla da verəcəyik".

Bu xüsusda diqqətçəkici detallardan biri də Xəzərdəki genişmiqyaslı təlimlərin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu həftə Türkmənistana nəzərdə tutulan səfəri ərəfəsində start götürməsi ilə ilgilidir. Baş nazir Əhməd Davudoğlunun Bakı səfərinin ardınca Ərdoğanın digər türkdilli ölkənin paytaxtı Aşqabada edəcəyi ziyarət şəksiz ki, əsasən transxəzər qaz kəməri və Türkiyənin enerji təhlükəsizliyini daha etibarlı eləmək, Rusiyanın hədələri fonunda ondan qaz asılılığını minimuma endirmək planları ilə bağlıdır.

Kremlin Xəzərdə mütəmadi güc nümayişi şübhə yox ki, həm də elə transxəzər qaz kəməri layihələrinə potensial təhlükə yaratmağa hesablanıb. Təsadüfi deyil ki,



gələn il Rusiya Xəzər dənizində nə az, nə çox- 20-yə yaxın iri hərbi təlim keçirməyi planlaşdırır. Hərçənd gün kimi aydındır ki, Rusiyanı Xəzərdə heç bir ölkə nə qurudan, nə də havadan hərbi cəhətdən hədələmir, ona təhlükələr yaratmır. Deməli, hədəf rəsmən elan edildiyi kimi deyil, ayrıdır...

***

Moskva bununla dəfələrlə işarə edib ki, dənizin de-fakto sahibi odur və onun "dobrosu" olmazsa, Xəzərin karbohidrogen qaynaqlarının istismarı və nəqlinə maneələr yaradacaq. Xəzərdəki Rusiya gəmilərindən guya İŞİD mövqelərinə qanadlı raketlərin atılması da müstəsna olaraq sahilyanı iri qaz ölkələri kimi Azərbaycan və Türkmənistana ünvanlı şantaj idi.

Ondan qabaq isə Rusiya XİN-in xüsusi nümayəndəsi Aleksandr Lukaşeviç transxəzər qaz kəməri layihəsinin reallaşması üçün bütün sahilyanı ölkələrin razılığının alınmalı olduğunu bildirmişdi. **"Transxəzər qaz kəmərinin tikintisi ilə bağlı birtərəfli fəaliyyət Xəzəryanı ölkələr arasında inamsızlığa gətirib çıxaracaq. İstisna deyil ki, layihənin regiondan olmayan lobbiçiləri "strateji tərəfdaş" və qaz kəmərinin bütün siyasi dividentlərinin tərəfdarı qismində buna nail olmağa çalışırlar. Həştərxanda keçirilən Xəzər sammitində beş ölkənin liderləri Xəzərin gələcəyi ilə bağlı həmrəy məsuliyyət daşıdıqlarını təsdiqlədilər. Hesab edirik ki, bu məsələyə şübhəsiz ki, qaz kəməri mövzusu da aiddir"**, - deyə Rusiya rəsmisi hədələyici şəkildə vurğulamışdı.

Bu hədədən keçən zaman kəsiyində indi, üstəlik, Ankara-Moskva əlaqələri korlanıb və Türkiyəyə, onun bölgədəki əsas müttəfiqi Azərbaycana təzyiqlər üçün transxəzər qaz kəmərinin önəmi daha da artıb. Xəzərdə intensivləşən hərbi təlimlərə öncəliklə bu baxış bucağından nəzər salmaq lazım gəlir.

***

Kremlin Xəzərdə özünü belə "bespardonnı" aparmasının bir səbəbi də sözsüz ki, dənizin hüquqi statusunun indiyədək qeyri-müəyyən qalmasıdır. Bu da şimal qonşumuza öz hərbi qüdrətinə arxalanıb akvatoriyada özünü daha sərbəst aparmasına şərait yaradır.

Dənizin yekun hüquqi statusunun dəqiqləşməməsində isə qonşu İranın zaman-zaman yaratdığı süni və əsassız əngəllər də mühüm rol oynayıb. İndi bəlli olur ki, bu əngəllər Rusiya və İrandan yan keçən və keçəcək, Qərbə, Türkiyəyə ünvanlı transxəzər qaz kəmərlərinə "sualtı manevrlər" yaratmaq üçün gərək imiş.

❑ **Siyasət şöbəsi**

# FTX İŞİD-ə qoşulmağa gedən azərbaycanlının adını açıqladı




**Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) Tatarıstan üzrə idarəsi İŞİD-ə qoşulmaq üçün Suriyaya gedən üç yerli sakinin adını açıqlayıb.**

Virtualaz.org saytı xəbər verir ki, onlardan biri azərbaycanlı Quliyev Malik Seyfulla oğludur. 1990-cı ildə anadan olub, Azərbaycan vətəndaşıdır.

O, Rusiya-Azərbaycan sərhədinin "Dərbənd" sərhəd-keçid məntəqəsindən keçib və Bakıya istiqamət alıb. Daha sonra buradan İŞİD-ə qoşulmaq üçün Türkiyə üzərindən Suriyaya keçib.

FTX həmin şəxslərə qarşı terrorçu təşkilatlara qoşulmaq ittihamı ilə cinayət işi qaldırıb, onların Rusiyaya geri qayıtmasına qadağa qoyulub.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015



# Cəbhə bölgəsində müharibə gedir: Müdafiə Nazirliyindən düşmənə son xəbərdarlıq

## Vaqif Dərgahlı: “Məhv edilənlər içərisində Suriyadan gəlmiş erməni döyüşçülər, muzdlular da var”

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində vəziyyət kifayət qədər gərginləşib. Düşmən ölkənin təxribatları və diversiya hücumlarının qarşısını alarkən Azərbaycan ordusu itkilər versə də, düşmənə əks zərbələr vurub. 30 noyabrdan sonra davam edən döyüşlərdə ordumuzun əsgəri Elşən İsmayılov, gizir Fariq Novruzov və baş leytenant Abdulla Mollayev şəhid olub, bir əsgərimiz Bəhruz Nəsibov isə yaralanıb.**

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı açıqlamada bildirilir ki, son günlər Silahlı Qüvvələrimizin bölmələrinin fəaliyyəti nəticəsində həm Azərbaycan-Ermənistan dövlət sərhədi, həm də işğal olunmuş ərazilərdəki qoşunların təmas xəttində düşmənin təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Ermənistanın işğalçı rəhbərliyinin məqsədyönlü surətdə gərginliyi artırması Azərbaycan tərəfini cavab tədbirləri görməyə məcbur edib. Sutka ərzində müxtəlif istiqamətlərdə əvvəlcədən müəyyən edilmiş koordinatlar üzrə düşmənin cəmləşdiyi nöqtələrə minaatanlardan vurulan zərbələr nəticəsində erməni tərəfi canlı qüvvə sarıdan onlarla itki verib, onun bir neçə avtomobil texnikası sıradan çıxarılıb.

Ermənistan tərəfi döyüş itkilərinin sayını yenə də azaltmaq üçün Dağlıq Qarabağdan olan hərbi qulluqçuların, səngərlərə yerləşdirilən mülki əhalinin, eləcə də Yaxın Şərqin müxtəlif qaynar nöqtələrindən gələn muzdluların məhv edilməsi faktlarını gizlədir. Müdafiə Nazirliyi bir daha bildirir ki, qoşunların təmas xəttində son günlər vəziyyətin daha da gərginləşdirilməsi, düşmənə qarşı tətbiq olunacaq cəza tədbirləri və verəcəyi itkilərə görə bütün məsuliyyət yenə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Qeyd edək ki, nazirlik düşmən mövqelərinin susdurulmasını əks etdirən videokadrlar da yayıb. Kadrlardan belə aydın olur ki, cəbhədə əməlli-başlı müharibə gedir və ənənəvi atəşkəsin pozulmasından söhbət gedə bilməz.

**Müdafiə Nazirliyinin mətbuat katibi Vaqif Dərgahlı da “Yeni Müsavat”a durumun kifayət qədər gərgin olduğunu bildirdi.** “Təbii ki, müharibə gedir. Müharibə heç vaxt bitməyib, son vaxtlar isə atəşin intensivliyi artıb”. **V.Dərgahlı qeyd etdi ki, son döyüşlər bütün düşmənlə təmas xətti boyu davam edib və minaatanlardan istifadə olunub:** “Goranboy istiqamətindən tutmuş, Füzuli istiqamətinə kimi bütün işğal olunmuş ərazilər boyunca atışmalar gedir. Son günlər erməni tərəfi 60, 82 mm-lik minaatanlardan atəş açır. Biz də 60, 82, hətta 120 mm-likdən cavab zərbələri endiririk. Kadrlardan ola bilsin ki, vəziyyət aydın görünmür. Ancaq 120 mm-lik minaatanların radiusu sığınacaqlarda, səngərlərdə 20 metr radiusda məhvetmə qabiliyyətinə malikdir. Açıq sahədə isə 50 metr və hətta daha artıq məsafədə itkilər ola bilər. Biz atəş açdığımızı gizlətmirik, çünki düşmən atır, biz də cavab veririk. Hətta ermənilərin atəşinə artıqlaması ilə cavab veririk, düşmənin canlı qüvvəsi və avtomobil texnikasını da hədəfə alırıq. Eyni zamanda bu zərbələr zamanı pilotsuz uçan aparatlardan da istifadə edirik, məqsəd hər addımda düşməni məhv etməkdir”.

**Nazirlik sözçüsü düşmən ölkə ilə sərhəddə vəziyyətin nisbətən fərqli olduğunu vurğuladı:** “Ermənistan tərəfdən minaatanlardan atmırlar, dövlət sərhədi boyu ancaq atıcı silahlardan istifadə olunur”.

**V.Dərgahlı bildirdi ki, düşmən tərəf noyabr ayına kimi 100-dən artıq itki verib, amma onlar faktları gizlədir:** “Səngərdəki mülkilər, Dağlıq Qarabağdakı əsgərləri və Yaxın Şərqin qaynar nöqtələrindən, xüsusən də Suriyadan gəlmiş erməni döyüşçülər, muzdlulardan da məhv edilənlər var. Amma bu haqda rəsmi məlumat verilmir. Şənbə günü isə erməni polkovniki məhv edildi. Düşmən daim gərginlik yaradır, təxribatlar törədir və cavabını da alır”. Nazirlik təmsilçisi qeyd etdi ki, düşmən ölkədə yaşanan gərginlik üzündən qoşunların təmas xəttində gərginliyin artması gözlənilən idi. Ona görə də ordumuz düşmənin təxribatlarını dəf etmək üçün tam hazırlıqlı vəziyyətə gətirilib.

# Ermənistanda baş verənlər Qarabağ danışıqlarına nə vəd edir?

**Ermənistandakı hakim rejimin cinayətkar əməlləri ölkə daxilində açıq şəkildə bəyan edilir. Elə son həftə ərzində İrəvanın mərkəzi meydanında keçirilən mitinqlərdə də “Serjik, rədd ol!” şüarları ilə çıxış edənlər cinayətkar rejimin öz ömrünü uzatmaq üçün referendum keçirməsinə etirazlarını bildirdi.**



Lakin etirazlara baxmayaraq, konstitusiya islahatlarını nəzərdə tutan referendum kütləvi saxtakarlıq şəraitində keçirildi. Ermənistan KİV-lərinin məlumatına görə, erməni müxalifəti geri çəkilmək niyyətində deyil. “Rejimin məhvi-xalqın xilasıdır”-Azadlıq meydanındakı mitinqin tribunasından “Yeni Ermənistan” hərəkatının lideri Jirayr Sefilyan belə deyib. Sosioloji sorğuların nəticələrinə görə, əhalinin 91-95 faizi konstitusiya islahatlarının əleyhinədir. Bu barədə “İrs” Partiyasının sədr müavini Armen Martirosyan bildirib. “İrs” Partiyasının İdarə Heyətinin üzvü Hrayr Manukyan saxtakarlıqların qarşısını almaq üçün cəhd göstərmək istəyərkən zorakılığa məruz qalıb. O, seçki məntəqəsində döyülüb . Həmin vaxt “İrs” Partiyasının sədr müavini Armen Martirosyan da bu ərazidə olub.

Lakin MSK konstitusiya dəyişikliyi ilə bağlı keçirilən seçkilərin ilkin nəticələrini açıqlayıb. Məlumata görə, referendumda ölkə əhalisinin 50,5%-i iştirak edib, onlardan da 75%-ə yaxını islahatlara “hə” deyib. (ANS) Bundan başqa, prezident ümumxalq səsverməsi ilə seçilməyəcək. Onu parlament deputatlarından və yerli idarəetmə orqanlarından təşkil edilmiş xüsusi qrup seçəcək. Lakin ölkə prezidentinin rəhbərlik dövrü əvvəlki kimi 5 il deyil, 7 il olacaq.

Bütün bunlar sübut edir ki, Sərkisyan rejimi ömrünü uzatmaq üçün Azərbaycanla təmas xəttində gərginliyi artırmaqda, hətta itkilər bahasına diqqəti daxildəki durumdan yayındırmağa çalışır. Bəs Ermənistandakı vəziyyət Azərbaycana, Qarabağa nə vəd edir? Sərkisyan rejiminə etirazlar hara qədər davam edə bilər və hakimiyyət dəyişikliyi Azərbaycan üçün faydalı perspektiv vəd edirmi? Belə vəziyyət prezidentlərin dekabr görüşünü sual altında qoymurmu? Bu məsələlərə ekspertlərimizin maraqlı yanaşmaları var.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a dedi ki, Ermənistan növbəti gərginlik dövrünə qədəm qoyub: “Bu ölkədə konstitusiya dəyişiklikləri cəmiyyəti parçalayıb. Cəmiyyətin fəal hissəsi prezident Serj Sərkisyan istəklərinə tabe olmaq istəmir. Ermənistan müxalifəti konstitusiya dəyişiklikləri əleyhinə çıxmaqla həm də gələcək prezident seçkisi öncəsi gücünü sınayır və narazı elektoratı ətrafında toparlayır. Ermənistanda baş verənlərin cəbhə bölgəsindəki duruma inikası da mümkündür. Çünki Serj Sərkisyan ağır anlarında cəbhə bölgəsində təxribata əl atır ki, cəmiyyətin diqqətini sosial və siyasi problemlərdən Dağlıq Qarabağa və** Azərbaycanla sərhədə yönəltsin, millətçi ruhu qaldırsın. Sərkisyan cəbhə bölgəsində gərginlik yaratmaqla bir başqa məqsədinə də çatmaq istəyir”. **E.Şahinoğlu bir məqama da diqqət çəkdi:** “Ermənistan hakimiyyəti Rusiya-Türkiyə münasibətlərindəki gərginlikdən öz məqsədləri üçün istifadə etmək istəyir. Məsələn, Kremlə yaxın bəzi rusiyalı ekspertlər təxribat xarakterli açıqlamalar yayırlar ki, guya Türkiyə Azərbaycanı Ermənistanla müharibəyə təhrik etmək istəyir ki, Rusiyaya Suriya xaricində, yəni Cənubi Qafqazda problem yaratsın. Həmin rusiyalı ekspertlər misal olaraq Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun və baş nazir Əhməd Davudoğlunun qısa zaman kəsiyində Bakıya ”şübhəli" səfərlərini də bu amillə əlaqələndirirlər. Daha anlamırlar ki, Türkiyədə hər seçkidən sonra qalib gələn siyasətçi ilk xarici səfərini Azərbaycana edir, bu, strateji müttəfiqliyin yaxşı ənənəsidir. Bu mənada Ermənistan ordusu cəbhə bölgəsində atəşkəsi pozanda Azərbaycan tərəfinin də cavab atəşinə və itkiyə ümid edir ki, sonra desinlər ki, “gördünüz, türkiyəli rəsmilərin Bakıya səfərlərindən sonra vəziyyət gərginləşdi”. Bundan sonra da rəsmi İrəvan Rusiyanın prosesə müdaxiləsinə ümidlidir".

**Ancaq politoloq deyir ki, rəsmi İrəvanın “tətbiq etdiyi” siyasətin bumeranq effekti var:** “Azərbaycan cəbhə bölgəsində işğalçının təxribatına layiqli cavab verir, düşmən itkiyə məruz qalır. Rusiyadan isə səs çıxmır. Bu mümkün də deyil, çünki Rusiyada onu da anlayırlar ki, Azərbaycan ordusunun Ermənistana hücum etmək kimi planı yoxdur, ordumuz işğalçının Dağlıq Qarabağ ətrafındakı postlarını məhv edir və bu, İlham Əliyevin ”Ermənistan əsgərinin və zabitinin Ağdam və Füzulidə nə işi var" strategiyasına uyğundur. Ona görə də Azərbaycan ordusu torpaqları azad etmək hüququndan istifadə edərək düşmənə daha ağır zərbələr endirməlidir ki, Serj Sərkisyanın planı nəinki pozulsun, hətta Ermənistan ordusunun üzləşdiyi itkilər Sərkisyanın cəmiyyət qarşısındakı vəziyyətini bir az daha ağırlaşsın". **E.Şahinoğlu qeyd etdi ki, Ermənistanda siyasi və sosial durumun ağırlaşması fonunda Azərbaycan prezidentinin Sərkisyanla görüşünün əleyhinədir:** “ATƏT-in Minsk Qrupu həmsədrləri ”Azərbaycan və Ermənistan prezidentləri dekabrın əvvəlində Parisdə görüşəcəklər" dedikdə, mən görüşün baş verməyəcəyini aylar öncəsi ehtimal etmişdim. Belə də oldu, İlham Əliyev doğru qərar verdi. Çünki Parisdə görüş üçün zəmin yox idi, danışıqlarda irəliləyiş qeydə alınmayıb. Həmsədrlər indi də deyirlər ki, prezidentlər dekabrın sonunda görüşəcəklər. Məncə, heç bu görüşə də ehtiyac yoxdur. Sərkisyanın kreslosu laxlayır. Ona görə belə prezidentlə görüşə ehtiyac yoxdur. Onunla görüş Sərkisyanın xeyrinədir ki, status-kovunu uzatsın. Belə bir fürsəti ona vermək doğru olmazdı".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

Yeni Müsavat
N 273 (6301) 8 dekabr 2015



# Gələnlər və gedənlər...

Hüseynbala SƏLİMOV

**Nə qədər qəribə olsa da, eks-prezident M.Saakaşvilinin Gürcüstan vətəndaşlığından məhrum edilməsi bir neçə gün siyasi gündəmi zəbt etdi. Ona görə "qəribə" deyirik ki, M.Saakaşvili artıq çoxdan Ukrayna vətəndaşlığını qəbul etmişdi...**

Maraqlıdır ki, M.Saakaşvili özü də buna bir qədər acıqla reaksiya verdi, halbuki Gürcüstanda biz bildiyimizə görə, ikili vətəndaşlıq yoxdur. Amma gəl, bu məsələnin bütün təfərrüatı deyil. B.İvanişvili və G.Margelaşvili cütlüyü hələ də M.Saakaşvilini cəzalandırmaq arzularına "stop!" demirlər...

Bu məsələ təzəcə başlayanda yazmışdıq ki, hakimiyyəti elə almaq lazımdır ki, onu verən peşiman olmasın. Saakaşvilini ideallaşdırmaq fikrimiz yoxdur, amma o, dinc yolla, seçki yolu ilə hakimiyyəti verdi...

Bundan əlavə, bu adam ölkəsində əsl qayda-qanun yaratmışdı. İndi çox yerdə cabalayırlar ki, heç olmasa, korrupsiyanı azacıq da olsa, cilovlaya bilsinlər. Saakaşvili bunun ən düzgün və optimal yolunu göstərdi: korrupsiyanı o vaxt cilovlamaq asan olur ki, birinci şəxs özü bu bəladan yüksəkdə dayansın və ona bulaşmasın...

Ümumilkdə isə Saakaşvili məsələsində Rusiyanın izini görürük. Sanki B.İvanişli dəstəsi bununla Rusiyaya öz sədaqətini nümayiş etdirmək istəyir və elə buna görə də Saakaşvilini rahat buraxmır...

Elə Saakaşvili özü də Rusiyanı dinc buraxmır. Maraqlıdır, indi rusiyalı təhlilçilər özləri yazır ki, Rusiya Suriyada Krım uğrunda vuruşur. Etiraf edirik ki, onlar bu ifadəni çox sərrast işlədiblər...

Rusiya Suriya məsələsinə qoşulandan biz də deyirik ki, onun məqsədi Krımı və Ukraynanın şərqindəki problemləri unutdurmaqdır...

Dedik ki, M.Saakaşvili indi də Rusiyaya dinclik vermir. Bəli, o, Rusiyanı ən çox dilxor edən və onunla dartışan Ukrayna siyasi hakimiyyətinin bir üzvüdür. Bunu Rusiyada yetərincə dərk edirlər. Amma bizi tamam başqa məsələ narahat edir. Keçmiş sovet ölkələrinin bir hissəsi hələ də normal siyasi sistem yaratmaqdan uzaqdır...

Normal siyasi sistem nəyə deyirik? Hakimiyyət məsələsi həmişə problemli olur, amma bu ölkələrdə o, əsl məşəqqətə çevrilir - onun badəsindən içdinsə o halda ya axıra qədər badəni əlində saxlamalısan, ya da bilməlisən ki, bu badəni əlindən buraxsan o, sənin başında sındırılacaq...

Bəli, E.Şevardnadze də Saakaşvilinin dövründə şifahi ittihamlara məruz qalır və bu adamın da barəsində hərdən qınaq dolu bəyanatlar səslənirdi. Amma tez bir zamanda buna son qoyuldu və Şevardnadze rahat buraxıldı...

Bizə elə gəlir ki, Saakaşvilinin ittihamlara məruz qalması onun nəticəsidir ki, B.İvanişvili gürcüləri aldadaraq hakimiyyəti dəyişdiyinin fərqindədir.

Əslində bu gün Gürcüstanda çox komik siyasi vəziyyət yaranıb. Hakimiyyətin boz kardilanlı adi bir Rusiya oliqarxıdır. Hakimiyyət özü isə faktiki olaraq marionet institut rolunu oynayır. Düzdür, prezident G.Margelaşvili ilə B.İvanişvilia arasında hərdən siyasi ixtilaflar yaşanır, amma bu daha çox saray çəkişmələrini xatırladır...

Qarşıdan isə parlament seçkiləri gəlir. Gürcüləri bu dəfə də aldatmaq mümkün olacaqmı? Güman ki, bu sual B.İvanişvilini daim məşğul edir...

Siyasətçilərin yalan vədlər verməsi elə də nadir bir hadisə deyil, buna hər yerdə, hətta ən demokratik ölkələrdə belə təsadüf olunur. Amma insanları bir dəfə aldatmaq olur, onlara bir dəfə yalan söyləmək olur...

Bu da siyasətdə, lap elə oyunda olduğu kimi, köməkçi vasitələrdən biridir. B.İvanişvili artıq bir dəfə bu vasitədən yararlanıb və böyük ehtimalla növbəti dəfə onun bu imkanı olmayacaq...

Vədlər isə hələ insanların yadındadır. Onlar hər şeyi xatırlayırlar. Bəli, nə Rusiya ilə münasibətlər yoluna qoyuldu, nə də sovet dövründən qalmış zavod və fabriklər işə düşdü...

Adamlar da bunu bilirlər. Onlar növbəti parlament seçkisində nə deyəcək? Yenə də "Gürcü arzusu"nun məstedici vədlərinə inanacaqlarmı? Biz proqnoz vermək fikrində deyilik. Ən azı ona görə ki, məntiqli siyasət olmayanda onu proqnozlaşdırmaq da çətin olur...

Sadəcə, bir qədər gözləmək lazım gələcək. İndi Gürcüstanda yeni siyasi hərəkatların da işarələri görünür. Amma hakimiyyət özünün əsas opponenti kimi hələ ki, M.Saakaşvilinin "Vahid milli hərəkat"ını görür. Olsun. Elə eks- prezident özü də etiraf edir ki, onun adı ətrafındakı qalmaqallar məhz elə bununla bağlıdır-siyasi sələflərindən qorxmaq siyasətdə elə də yeni bir hadisə deyil. Amma insanlar yenilik umur...

**Xarici və yerli mütəxəssislər dekabrın 4-də "Günəşli" yatağında baş verən faciənin qarşısını almağın mümkünlüyü haqda fikirlər səsləndirirlər. Deyirlər ki, 1 gün əvvəldən güclü külək, hətta qasırğa olacağı haqda məlumat olub. Amma iş dayandırılmayıb, iş rejimi dəyişdirilməyib. Nəticədə 32 neftçi həyatını itirib.**




# İş hansı hallarda dayandırılmalıdır-konkret şərtlər və tələblər

## Əmək Məcəlləsində açıq havada və dənizdə iş rejimi barədə nələr yazılıb?

*Belə bir halda qanunla iş dayandırılmalı idimi?*

*Azərbaycanın Əmək Məcəlləsinin I bölməsinin 4-cü maddəsinin 2-ci əlavəsi məhz təbii proseslərin dinamikasına uyğun olaraq işlərin dayandırılması şərtlərini müəyyən edir.*

*"İlin soyuq vaxtında açıq havada və ya isidilməyən örtülü binalarda, habelə isti havalarda işin dayandırılması və işçilərə fasilələrin verilməsi şərtləri" adlanan əlavədə yazılır:*

**1.** Havanın temperaturu 41 dərəcə Selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır və işçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilir. [225]

**2.** Küləyin gücü 6 bal və daha artıq olduqda, quruda kranlarla görülən bütün növ işlər dayandırılır.

**3.** Tikinti işləri görüldükdə aşağıdakı hallarda işlər dayandırılır:

**3.1.** küləyin gücü 2 baldan artıq olduqda - kranlar qurulması üzrə quraşdırma işləri;

**3.2.** küləyin gücü 3 baldan artıq olduqda - qaldırıcıların quraşdırılması və sökülməsi işləri;

**3.3.** küləyin gücü 6 baldan artıq olduqda - taxta-şalban işi, habelə taxta-şalbanın sökülməsi;

**3.4.** küləyin gücü 3 baldan artıq olduqda - daşınan taxta-şalbanın yerinin dəyişdirilməsi işləri.

**4.** Dənizdə işləyərkən aşağıdakı hallarda işlər dayandırılır:

**4.1.** küləyin gücü 4 baldan artıq olduqda - ayrı-ayrı özüllərdə kran gəmiləri vasitəsilə görülən tikinti-quraşdırma və sökmə işləri;

**4.2.** küləyin gücü 4 baldan artıq olduqda - daimi dəniz özülləri və estakadayanı meydançaları yanındakı buxtalarda barjlara, kran gəmilərinə yükvurma və yükboşaltma işləri;

**4.3.** küləyin gücü 8 baldan artıq olduqda - qazma işləri aparılan quyularda alətlərin quyulardan qaldırılması ilə əlaqədar bütün işlər;

**4.4.** küləyin gücü 6 baldan artıq olduqda - daimi dəniz özüllərində istismar edilən quyularda işlər;

**4.5.** küləyin gücü 6 baldan artıq olduqda - daimi dəniz özüllərində estakadayanı meydançalarda quyuların əsaslı və cari yeraltı təmir işləri;

**4.6.** küləyin gücü 8 baldan artıq olduqda - özülün və ya estakadayanı meydançanın döşəməsi üstündəki işlər;

**4.7.** küləyin gücü 8 baldan artıq olduqda - özülün və ya estakadayanı meydançanın döşəməsi altındakı işlər;

**4.8.** küləyin gücü 4 baldan artıq olduqda - qaynaq tikişinin aşağı vəziyyətdə qoyulduğu bütün növ qaynaq işləri;

**4.9.** küləyin gücü 3 baldan artıq olduqda - qaynaq tikişinin şaquli vəziyyətində qoyulduğu bütün növ qaynaq işləri;

**4.10.** küləyin gücü 3 baldan artıq olduqda - qaynaq tikişin tavan vəziyyətdə qoyulduğu bütün növ qaynaq işləri;

**4.11.** küləyin gücü 5 baldan artıq olduqda - ayrı-ayrı özüllərdə üzən vasitələr, qurğular olmadan tikinti-quraşdırma və sökmə işləri;

**4.12.** küləyin gücü 4 baldan artıq olduqda - estakada tikən kranla quraşdırma işləri;

**4.13.** küləyin gücü 5 baldan artıq olduqda - kopyor vasitəsilə dayaqlar vurulması işləri;

**4.14.** küləyin gücü 4 baldan artıq olduqda - dəniz neft-mədən qurğularının sökülməsi işləri;

**4.15.** küləyin gücü 5 baldan artıq olduqda - daimi dəniz özüllərində buruqların quraşdırılması, sökülməsi və dorların qaldırılması *(endirilməsi)* işləri;




**4.16.** küləyin gücü 5 baldan artıq olduqda - traversin sürgü qollarının, mancanaq dəzgahının asma kanatının təmiri və dəyişdirilməsi, buruqda və ya dorda diyircəklərin, kran-blokun dəyişdirilməsi, tali kanatının təchizatı, dərinlik ölçmələri və quyuların debitinin ölçülməsi işləri;

**4.17.** küləyin gücü 5 baldan artıq olduqda - estakada meydançalarında quyuların cari və əsaslı təmiri üçün səyyar aqreqatların dorlarının qaldırılması işləri;

**4.18.** küləyin gücü 10 baldan artıq olduqda - quyunun yuyulması işlərindən başqa buruqda bütün işlər.

**5.** Havanın temperaturu Selsi ilə mənfi 10 dərəcə və daha aşağı olduqda və eyni zamanda küləyin gücü 3 baldan artıq olduqda açıq havada bütün növ işlər dayandırılır və ya işçilərə isinmək üçün fasilələr verilir.

**6.** İstehsalın fasiləsiz xarakterli olması ilə əlaqədar işi dayandırmağın qeyri-mümkün olduğu yerlərdə işin dayandırılması bir-birini əvəz edən növbələr müəyyən olunması ilə əvəz edilir. Növbələrin bir-birini əvəz etməsi həmkarlar ittifaqları təşkilatının razılığı ilə işəgötürən tərəfindən müəyyən olunur.

**7.** İlin soyuq vaxtında örtülü, lakin isidilməyən binalarda temperatur Selsi ilə müsbət 14 dərəcədən aşağı olduqda, işçilərə fasilələr verilir və ya iş dayandırılır.

**8.** İşlərin dayandırılması və isinmək üçün fasilələr verilməsi, habelə bu fasilələrin sayının və müddətinin müəyyən edilməsi işəgötürənlə həmkarlar ittifaqları təşkilatının birgə qərarı ilə həyata keçirilir.

**Bu əlavədən də görünür ki, SOCAR rəhbərliyi Əmək Məcəlləsinə uyğun olaraq dənizdə və quruda işləri dayandırmalı idi.**

❑ E.MƏMMƏDƏLİYEV

**Rusiya Dövlət Dumasına təqdim olunan antitürk layihə - "erməni soyqırımı"nın inkar edilməsinə görə cinayət məsuliyyətini nəzərdə tutan qanun layihəsinin nə zaman müzakirəyə çıxarılacağı bəlli deyil.**



# Rusiya qondarma "soyqırım"ı inkar qanununu qəbul etsə...

## Rəsmi Bakı hələlik reaksiya verməyə tələsmir, amma narahatlıq kifayət qədərdir; politoloq: "Gözləmək lazımdır"

Türkiyənin "Su-24" qırıcı təyyarəsini vurmasından sonra Ankaraya zərbə vurmağa çalışan Rusiyadakı qüvvələr bu layihədən də yararlanmaq niyyətindədirlər. Xatırladaq ki, qatı antitürk mövqeli deputat V.Jirinovski Türkiyəyə qarşı "Böyük Ermənistan" kartından istifadə etməyə, ermənilərin türk torpaqlarına iddiasına dəstək olmağa çağırmışdı. Rusiyanın bəzi KİV-lərinin yaydığı xəbərə görə, Dövlət Dumasının deputatları Sergey Mironov və Nikolay Leviçev tərəfindən "Rusiya Federasiyası Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəllənin 151-ci maddəsinə dəyişikliklərin edilməsi haqqında" 938567-6 saylı qanun layihəsi hazırlanıb. Sənədə hazırda Rusiya Dövlət Dumasında baxıldığı bildirilir. Həmin qanun layihəsi "erməni soyqırımı"nın inkarına görə cinayət məsuliyyətini nəzərdə tutur.

Şübhəsiz ki, belə bir qanunun qəbul olunması Azərbaycanı da çətin situasiya ilə üz-üzə qoya bilər. Elə buna görə Rusiyadakı Azərbaycan diasporu ciddi narahatlıq keçirir. Bu barədə modern.az saytına Nijni-Novqorod şəhərindəki Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri Vidadi Abbasov məlumat verib. V.Abbasov deyib ki, Azərbaycanın müvafiq təşkilatları, o cümlədən Diasporla İş üzrə Dövlət Komitəsi bu işi ciddiyə almalı, önləyici tədbirlər görülməlidir.

Rəsmi Bakı isə hələlik Rusiyanın hansı addımlar atacağını qətiləşdirmədiyi üçün konkret mövqe bildirməyə tələsmir. Parlament səviyyəsində də hələlik etiraz ifadə olunmayıb. Bununla belə, müşahidələr onu göstərir ki, ölkənin müvafiq qurumları durumdan narahatdır. Hesab olunur ki, Rusiya Dövlət Dumasının ermənilərin mövqeyindən çıxış etməsi Bakı-Moskva münasibətlərinə, həmçinin Rusiyanın vasitəçi dövlət kimi Qarabağ münaqişəsinin həllindəki roluna xələl gətirə bilər.

**Politoloq Şahin Cəfərli Dumanın bu qanunu qəbul edəcəyini güman etmir. Ona görə də hesab edir ki, dolğun şərh vermək üçün gözləmək lazımdı: "Çünki elə bir qanun qəbul olunsa, bu, həm də Rusiya-Türkiyə münasibətlərinin sonrakı axarına təsir edəcək. Yəni məlum olacaq ki, Rusiya gərginləşmə xətti tutub. Əksi olsa, yəni qəbul olunmasa, bu, o mənaya gələcək ki, Rusya yumşalır. Ona görə də gözləmək lazımdı".**

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli hesab edir ki, indiki vəziyyətdə Fransanın Türkiyə siyasəti ilə bağlı mövqeyi dəyişə bilər:** "Türkiyənin rus döyüş təyyarəsini vurmasından sonra diqqət mərkəzinə gəlməsi, G-20 sammitində qəbul edilən sənədlər və ABŞ-Avropa-Türkiyə hərbi-siyasi müttəfiqliyinin gözlənildiyindən də üstün vəziyyətdə olması mühüm rol oynadı. Dışlanan Türkiyə artıq mərkəzdədir. Türkiyənin isə anında bir neçə dəfə milli məsələ hesab etdiyi Qarabağ problemi, şübhəsiz ki, dərin qatda anlaşmalar Fransanı səhv addımından imtinaya sövq edə bilər. Rusiya ətrafında həlqə daralsa da, dünya qorxulu hərbi dilin avtoritet olduğu mərhələni yaşayır. Azərbaycanın Türkiyə jesti isə Rusiyanı bəzən "mehriban dost", bəzən isə "zalım qonşu" şineli geyinməyə məcbur edir".

**Z.Məmmədlinin fikrincə, Azərbaycanı Türkiyənin yanından ayırmaq üçün Rusiya hər addıma getməyə hazır görünür:** "Rusiyanın gələcəyinin Azərbaycandan asılılığı haqqında əsaslı arqumentlər gətirə bilərəm. Ancaq Rusiyanın bu jestləri, hələ bundan sonra daha cəzbedici Qarabağ kartının da işə salınması aldadıcıdır və ilhaq ssenarisinin tərkibindən başqa bir şeyə bənzəmir. Azərbaycan əlavə qıcıq yaratmadan Türkiyənin olduğu məkandan bir an da ayrılmaq üstündə düşünməməlidir. Əgər Rusiya bu məsələdə nümayişkaranə şəkildə yanlışlığa yol versə, öz daxilində ciddi problemlərin yaranması qaçılmazdır".

❑ **Cavid TURAN**

# Sərdar Cəlaloğlu Şeyxin ştatının ləğvini tələb etdi

## "Qafqaz Müsəlmanları İdarəsi ləğv olunmalıdır"

**ADP sədri Sərdar Cəlal oğlu Azərbaycanda dinlə bağlı ortaya çıxan problemlərin günahkarı kimi Qafqaz Müsəlmanları İdarəsini sayır. S.Cəlaloğlu "Yeni Müsavat"a açıqlamasında deyib ki, Qafqaz Müsəlmanları İdarəsi dinlə bağlı ölkədə normal iş apara bilmir:**



"Necə olur ki, Allahşükür Paşazadənin idarəsi Azərbaycanda normal dini təbliğat həyata keçirə bilmir, amma kimlərsə gəlir Azərbaycanın bir kəndində dini təbliğat aparır və hakimiyyətə qarşı silahlı dəstə hazırlamaq qədər təbliğat, iş aparır? Azərbaycan televiziyalarında dinlə bağlı məsələlərin açıq elmi müzakirəsi keçirilmir. Bunu Qafqaz Müsəlmanları İdarəsi etmirsə, bu qurum nəyə lazımdır?! Ona görə də hər kəs məscidlərdə Quranı öz bildiyi kimi yanlış təbliğ edir və vətəndaşlar da buna inanır. Çox adam var ki, Qurandan bir kəlmə oxumayıb, amma kənar adamların dedikləri əsasında elə zənn edir ki, həmin fikirlər Qurandadır. Mən həmin adamlara deyəndə ki, Quranda belə şey yoxdur, məəttəl qalır. Azərbaycanda həm dini təbliğat düzgün qurulmayıb, həm dinin təşkil olunması düzgün deyil, həm də dinə məsul olan şəxslər öz vəzifələrini yerinə yetirməyiblər. Camaat kənar ölkələrdən gəlib burada təriqət yaradır, bizim din xadimlərimizin bir çoxu isə soğan, kartof, xalça alveri ilə məşğuldur. Birdəfəlik məsələ qoyulmalıdır ki, kim bizneslə məşğuldur, getsin biznesinə, dinlə məşğul olan isə həqiqətən dinlə məşğul olsun. Azərbaycanda bu gün elə bir böyük ictimai nüfuzu olan din alimi yoxdur ki, çıxsın xalqa Quranın konkret hökmlərini izah eləsin, xalq da məhz onu dinləsin".

**ADP sədri vurğuladı ki, qeyd olunan vəziyyətin yaranmasında Qafqaz Müsəlmanları İdarəsi əsas məsuliyyət daşıyır:** "Sovet dövründə Qafqaz Müsəlmanları İdarəsi Rusiyanın bir idarəsi idi. Əslində İslamda belə bir idarə üsulu yoxdur. Ateizmi təbliğ etmiş bir dövlətin yaratdığı idarə nəyə lazımdır indi?! Qafqaz Müsəlmanları adlı idarə şəriətə, İslama uyğun olmayan bir qurumdur. İndi də hökumətin əlinə işləyir deyə onu saxlayırlar. Bu qurum vətəndaşların dini baxışlarının düzgün istiqamətləndirilməsində heç bir rol oynaya bilmir. Odur ki, Qafqaz Müsəlmanları İdarəsi buraxılmalıdır. Ölkədə dini məsələləri yalnız bir dövlət qurumu-Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirməlidir. Bu qurum nazirlik statusundadır. Qafqaz Müsəlmanları İdarəsi buraxılmalıdır, onun bir sıra işçiləri Dini Komitədə müvafiq şöbələrdə işə götürülməlidir. Din sahəsində çox ciddi islahatlara ehtiyac var. Allahşükür Paşazadənin idarəsi nəyə lazımdır? Şeyxin statusunun İslam dininə heç bir aidiyyəti yoxdur".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanın Taner Yıldızı niyə yoxdur?



**Azər RƏŞİDOĞLU**

**"Günəşli" neft yatağında baş verən faciədə 30 nəfər itkin düşüb. Onlardan 7 nəfərin cəsədləri tapılıb - yerdə qalanların da artıq həlak olması qaçılmazdır.**

Kimlərinsə öz vəzifəsinin öhdəsindən gələ bilməməsinin qurbanı 30 insan oldu. Baş verən hadisələr fonunda ən acınacaqlı hal o idi ki, heç kəs nə baş verdiyini bilmirdi. Hamı panika içində idi. ARDNŞ prezidenti Rövnəq Abdullayev hamının xilas edildiyini bəyan edirdi. Sosial şəbəkələrdə isə ziddiyyətli məlumatlar dolaşmaqda idi. Azərbaycan telekanalları yenə də konsert verirdi. Vətəndaşlar üçün yeganə məlumat mənbəyi sosial şəbəkələr idi və hər kəsin gözü məlumatsızlıq fonunda çətinliklə də olsa, informasiya blokadasını yaran Neftçilərin Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Mirvari Qəhrəmanlıda idi. Yalnız o, "Günəşli"də insan tələfatının olduğunu bəyan edirdi. M. Qəhrəmanlıdan sonra nüfuzlu "Reuters" agentliyi də informasiyanı təsdiqlədi - 30-dan çox insan həlak olub.

***

Yer üzündə hər saniyədən bir 2 insan ölür. Hər gün dünyada aclıqdan 40 min nəfər həyatını itirir. Hər bir saatdan bir onlarla insan qətlə yetirilir. Hər iki saatdan bir kimsə müharibədə ölür.

Hər 39 saniyədən bir kimsə intihar edir. Hər 26 saniyədən bir kimsə avtomobil qəzasında həyatını itirir. Hər 3 saniyədən bir kimsə acından ölür. Hər 3 saniyədən bir 5 yaşına çatmamış uşaq dünyadan köçür. Söhbət ölümdən deyil, insan taleyinə biganəlikdən gedir.

***

Hər kəs ARDNŞ rəhbərliyinin məlumatını gözləyirdi. Bu qurumun mətbuat xidmətinin rəhbərliyi telefon zənglərinə ümumiyyətlə cavab vermirdi. Fəlakətlə bağlı yaradılmış qərargah da heç bir məlumat vermirdi. "Günəşli"də olan 84 nəfərin ailələrinin durumunu düşünən belə yox idi. Necə deyərlər, hər kəs öz kefində idi.

***

2014-cü ildə, Soma faciəsi zamanı daha çox nəzərləri bir sima çəkdi - o zamankı energetika naziri Taner Yıldız. İlk gündən faciə qurbanları ilə çiyin - çiyinə dayanan, özünü sona qədər soyuqqanlı aparan, problemləri yerindəcə həll edən Taner Yıldız "namuslu məmur necə olmalıdır" sualına bariz nümunə idi. Əsəbləri oynamış kütlənin təhqirlərinə soyuqqanlılıqla və təmkinlə cavab verən nazir "kabinetsiz və katibəsiz" məmur olmaq mümkündür dərsini verdi. Taner Yıldız Türkiyənin üzünü ağartdı. Onun peşəkarlığı, insanlığı, səbri olmasaydı, qəzəblənmiş kütlə "Davos fatehi"nin hakimiyyətini çeynəyə bilərdi.

T.Yıldız müxalifətin, mətbuatın, sadə vətəndaşların sevgisini qazandı. Peşəkar, yerində olan kadrlar ekstremal vəziyyətlərdə qəhrəmana çevrilirlər. T.Yıldız Somanın bir nömrəli fədakarı statusunu öz əməyi ilə qazandı.

***

"Günəşli"də baş verənlər bütün dünya üçün bir həyəcan siqnalı idi. İstənilən ölkədə belə bir faciə yaşana bilər. O cümlədən də Azərbaycan da gələcək belə hadisədən sığortalanmayıb. Dualarımız belə halın bir də yaşanmamasına yönəlib. Lakin belə hal bir daha yaşanarsa, nə baş verər sualını verməmək də olmur.

Azərbaycanın Taner Yıldızı niyə yoxdur? "Günəşli faciəsi" sübuta yetirdi ki, T. Yıldızın tam tərsi olan Azərbaycan məmuru kobudluğu, saymazyana və qaba davranışı ilə tanınır. Azərbaycan məmuru mediatik deyil, xalqla rəftar üzrə texnoloq sayılmaz. Bizim məmurlar başqa təyinat üzrə qəhrəmandırlar. Ekstremal vəziyyətlərdə çaşbaş qalırlar. Bunu "Günəşli faciəsi" zamanı da gördük...

***

Türkiyədə Soma faciəsinə görə 3 günlük matəm elan olundu. Atatürkün ölümündən sonra bu, ilk uzunmüddətli matəm idi. Azərbaycanda isə yalnız 1 günlük matəm elan edildi.

2009-cu ildə Neft Akademiyasında terror hadisəsi baş verdi. Matəm elan etmək heç kəsin yadına düşmədi. Əksinə, bir neçə gündən sonra ölkəni zorla bayram etməyə məhkum etdilər. Türkiyə ilə fərqimiz də budur.

***

Somada şaxtada baş verən qəza zamanı xilasedicilər bir nəfəri xilas edəndə bu sözləri deyib: "Qardaş, Mahmud orada qaldı. Məni buraxın, siz Mahmudu xilas edin. Mahmudun arvadı hamilədir. Mahmud ailəsinə lazımdır. Yalvarıram sizə, məni buraxın, onu xilas edin". Mənəvi deqredasiyaya uğramamış millətlər belə olur. Azərbaycan tam tərsidir. Demokratının içində diktator yatan, dindarının içində kafir yatan, ateistinin içində din yatan, zadəganının içində gədalıq yatan saxta və riyakar cəmiyyətdə yaşamaq olduqca zordur.

Allah bizi hər növ faciələrdən qorusun. Biz toy-bayram insanıyıq. Faciələrə hazır deyilik...

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015

**Günəşli yatağında baş vermiş dəhşətli faciənin izləri davam edir. Araşdırmalar yekunlaşmayıb, yaralılar və ölülər bir-bir dənizdən çıxarılır. Amma ekspertlər hadisə ilə bağlı ilginc qiymətləndirmələr edirlər. Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı "Yeni Müsavat"a müsahibəsində olayı ən incə detallarına qədər təhlil etdi. Müsahibimiz öncə son durumu aydınlaşdırdı.**

# "Bundan öncəki qəza hadisələrindən nəticə çıxarılmadı"

## "Günəşli" faciəsini dünyaya ilk çatdıran Mirvari Qəhrəmanlı: "Əsas məsuliyyət platforma rəisinin üzərindədir..."

- Dövlət Neft Şirkətində mətbuat xidməti, ictimaiyyətlə əlaqələr xidməti çox pis qurulub. Bu qədər həyəcanlı bir vəziyyətdə ictimaiyyətin məlumatlandırılmaması və sovet vaxtında olduğu kimi, xəbərin gizlədilməsini də pis hal kimi qiymətləndirirəm. Qəza ilə əlaqədar hərə bir versiya söyləyir. Xoşbəxt Yusifzadənin deməsi ilə də razı deyiləm. Komissiyanın nəticəsi olmadan heç kimin ixtiyarı yoxdur ki, qəzanın nədən baş verdiyini desin. Məsələn, partlayış baş verən kimi mənə yazdılar, xəbər verdilər. Dedilər ki, orda texniki səhlənkarlıq olub. Bəlkə də olmayıb, hər halda, fəhlə adamdır, onun mənə dediyi ilkin versiya bu idi. O dedi ki, boruya qaz dolmuşdu və sair. Bütün hallarda qazla əlaqədardır.

Ən asanı odur ki, bu məsələdə şirkəti günahlandıraq. Bu, çox asandır, çünki birbaşa ünvan şirkətdir. Amma təhlükəsizliyə, sağlam iş şəraiti yaradılmasına idarənin rəhbərliyi, yəni 28 May adına Nef-Qazçıxarma İdarəsinin *(bundan sonra "28 May" idarəsi)* rəhbərliyi birbaşa cavabdehlik daşıyır. Orda baş verən qəzaya texniki təhlükəsizlik qaydalarına riayət olunmaması səbəb olubsa, bunda da baş mühəndis və onun kurasiyasındakı şöbələr məsuliyyət daşıyır. Və əsas məsələ - platformanın rəisi var. Bütün məsuliyyət onun üzərindədir. Sonra gəlir "Azneft", ardınca şirkət. Ən son isə Xoşbəxt Yusifzadə. Çünki bu məsələdə hamının məsuliyyət payı var.

***- İddialardan biri də budur ki, qasırğa haqqında xəbər alınan kimi platformalarda işi dayandırmaq lazım idi. Amma sizin sosial şəbəkədə paylaşımlarınızdan belə anladım ki, siz platformada işi dayandırmağın doğru olmadığını müdafiə edənlərdənsiz. Niyə?***

- Fasiləli və fasiləsiz iş var. Çox adam yazır ki, insanlar platformanı tərk eləməli idilər. Bəzən bunu yazanlar anlamırlar ki, bu, buruqdur, gecə-gündüz işləyir. Onu saxlamaq olmaz. Bir buruğun saxlanılmasına, reabilitasiyasına nə qədər vəsait sərf olunur, bilirsizmi? Fəaliyyəti dayandırmaqla ölkəyə nə qədər ziyan dəyə bilər. O, fasiləsiz işdir. Qasırğa olmamış "Azneft"dən bütün idarə və müəssisələrə telefonoqramma gedir ki, güclü külək, qar gözlənilir. Daimi növbətçilik və hazırlıq gözlənilir. Bunlar qasırğaya hazır olmalıdılar. Belə olan halda o qayıqlar da yoxlanmalıydı, onun nə vəziyyətdə olduğu müəyyənləşməliydi, asılmağı da, yanğından mühafizə mexanizmləri də. Hamısının yoxlanılması, nəzarətə götürülməsi "28 May"dan olmalıydı. Əsas sual odur ki, qəzaya hazırlıq vəziyyəti nə səviyyədə olub. Onu komissiya müəyyənləşdirəcək.

***- Komissiyanın rəyi hazır olmasa da, şahidlərin ilkin rəylərinə əsasən qayıqların nasaz durumda olması, xilasedici jiletlərin çatmaması tələfat və itkilərin əsas səbəbləri sırasındadır.***

- Həm nəzarət zəif olub, həm də təhlükəsizlik tədbirləri yerinə yetirilməyib. İnsanlar özlərini itiriblər. Jiletlər elə qayıqların içində qalıb. Çünki dənizdə jiletləri tapıblar. İnsanların bu vəziyyətdə onu əynindən çıxarması qeyri-mümkündür. Bu insanların əynində jilet olsaydı, yenə də ehtimal vardı. Çünki işıq yanır, suyun üzərində qalma ehtimalları vardı. Daha bir məqam isə qayıqların düzgün bərkidilməməsidir. Necə olur ki, qayıqlar bağlandığı yerdən düşsün? Bu qayıqlara niyə bərabər sayda insanlar mindirilməyib? Yəqin ki, kimsə basabasla minib. Qayıq niyə cırılmalıydı? Deyirlər ki, qayıq nəyəsə ilişib cırılıb. Onu necə rıçaqla aşağı salmağa çalışıblar? Bu, necə olub? Təxliyə düzgün təşkil olunmayıb.

***- Xilasetmə əməliyyatının lazımi səviyyədə təşkil olunmaması ilə bağlı rəylər də var...***

- Keyfiyyəti yüksək qiymətləndirmirəm. Təxliyə birinci "28 May"ın özündə olmalı idi. Dövlət Neft Şirkətinin tərkibində Xəzər Dəniz Donanması idarəsi vardı, onun içərisində xilasetmə ilə əlaqədar şöbəsi, neft şirkətinin irihəcmli gəmiləri vardı. "28 May"ın özünün qasırğa xəbərdarlığı olduqda o iritutumlu gəmilər yaxınlarda olmalıydı. Amma onların gəmiləri yox idi. BP-dən gəmi istədilər. Niyə BP-dən gəmi istəyəsi oldular? Bunların sovetdən qalma nə qədər gəmiləri var idi, bilirsizmi? Çoxu da yanğınsöndürmə gəmiləri. Bunlar alınıb hamısı başqa-başqa qurumlara verildi. Dövlət Neft Şirkətini ediblər ikinci büdcə. Neft şirkəti köhnə yataqlara sərmayə qoymur. Onların inkişafına vəsait ayırmaqdansa, bütün nazirliklərin işini Dövlət Neft Şirkətinə həvalə ediblər. Əli-qolu qırılmış vəziyyətdə. Dövlət Neft Şirkəti də Fövqəladə Hallar Nazirliyini çağırıb. Halbuki ilkin xilasetməni özü edə bilməyib. Adamların dənizə düşməsinə, ölməsinə səbəb təxliyənin düzgün təşkil olunmaması oldu.

***- Boruların çürüməsi, düzgün quraşdırılmaması kimi məsələlər də səbəblər sırasında göstərilir. Səhv etmirəmsə, sizin də qəzadan öncə dəfələrlə bu barədə açıqlamalarınız olub.***

- Köhnə yataqlarla əlaqədar hər zaman həyəcan təbili çalıram. Hər il illik hesabatımız olur. Orda qeyd olunur ki, neftçilərdən nə qədəri dünyasını dəyişib və niyə dəyişib. Dövlət Neft Şirkəti bunu ciddiyə almayıb. Xarici şirkətlərin də bostanına daş atmışıq, amma laqeydlik göstəriblər. Ötən il Dövlət Neft Şirkətində 4 qəza hadisəsi baş verib. Bunlardan biri elə Neft Daşlarında baş vermişdi, biri də bu il yaşandı. O qəza hadisələrindən nəticə çıxarılmalıydı, çıxarılmadı, əvvəldən inventarizasiya aparılmalıdır. Bu, estakadalara aiddir. Neft Daşlarına aiddir. Bunun səbəbi də Dövlət Neft Şirkətinin ikinci dövlət büdcəsinə çevrilməsidir. Platformalar estakadalara nisbətən cavandır. Məsələn, bu, 84-cü ildə qurulmuş, təhlükəsizlik qaydalarına tam uyğun platformalardır. Təbii ki, indiki "Azəri", "Çıraq", "Günəşli" platforması ilə müqayisə oluna bilməz. Ona görə ki, zamana uyğun texnikalar və mühəndislər var. Onlar nə zaman tikilib, bunlar nə zaman. Amma boruların çürüməsi olsaydı, tamam başqa nəticələri olardı. Deyirlər, qaz borusunun çürüməsi var. Bunun da məsuliyyəti düşür platformanın və "28 May"ın üzərinə. Onu da sübut etmək lazımdır. Elə versiyanı demək lazımdır ki, özünə qarşı işləməsin.



**"Heç vaxt ola bilməz ki, dənizin ortasında kamikadze tapılsın..."**

***- Versiyalardan biri də bu yanğının təxribat olması idi.***

- Mən bu versiyanı, ümumiyyətlə, qəbul etmirəm. Neftçilər bir-birinə çox sadiq, etibarlı olurlar. Əsgərlik iki il birgə keçir, onlar isə 10-15 il bir yerdə qulluq edirlər. Onlar ailə kimidir, doğma olurlar. Heç vaxt ola bilməz ki, dənizin ortasında kamikadze tapılsın. Bu, qeyri-mümkündür. Sadəcə, bu versiyanı yayanlar diqqəti yayındırmaq istəyirlər. Hadisənin baş verməsi səbəbləri məlumdur, günahkarlar tapılıb cəzalandırılmalıdır.

***- Bugünlərdə hava yenidən kəskin pisləşəcək. Necə hesab edirsiz, eyni hal yenidən təkrarlana bilərmi? Bunun qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?***

- Biz risklərdən təmiz sığortalanmamışıq. Təbii fəlakətlərdən də həmçinin. Bu, qasırğa da ola bilər, tornado da, zəlzələ də. Platformalar da, estakadalar da buna uyğun tikilməli, uyğunlaşdırılmalıdır. Xəzərin seysmik vəziyyəti də nəzərə alınaraq tikilib köhnələr. Yəqin ki, həm "Azneft", həm "28 May" rəhbərliyi, həm də ARDNŞ rəhbərliyi bu təhlükəni nəzərə alıb, önləyici tədbirlər görməlidir. Partlayış da ola bilər, hər şey də. Vaxtilə Norveçdə bütün platforma uçmuşdu. Ondan ötrü bir muzey də yaradıblar.

***- Əmək Məcəlləsi nə deyir bu kimi hallarda? İşəgötürən nə etməlidir?***

- Əmək Məcəlləsinin 215-ci maddəsinin tələbləri pozulub. İşçilərə təhlükəsiz iş şəraiti yaradılmayıb. Mən araşdırmalarımı davam etdirəcəyəm. Orda nə qədər adam olmuşdu, hadisəni yaradan səbəblər və sair barədə araşdırmalarımız olacaq. Buna vaxt lazımdır. Qeydiyyatda olan və itkin düşən adamlar da ola bilər.

***- Ölkə üzrə yanğın barədə ilk məlumatı yayan siz olmusuz. Sosial şəbəkədəki statusunuzda. Amma daha çox "Röyters" agentliyinin adı hallanır. Onun da BP-yə istinadən bu xəbəri yaydığı bildirilir...***

- "Röyters" BP-yə istinad edə bilməz, düzgün eləmir. Bütün informasiyaları bizim təşkilat verib, mən verməşəm. Sosial şəbəkədə yaydım öncə xəbəri. Sonra İlham Şabanla əlaqə saxlayıb dedim ki, İlham, kimi tapırsansa tez xəbər elə, vəziyyət çox ağırdır. Çünki yanğın başlayan kimi oradakı uşaqlar mənə xəbər verdilər. Yarım saatdan bir informasiyanı vermişəm, dediklərim də doğru olub. Təəssüf ki, bizim media orqanları mənim yazdığım xəbərlər əsasında cəmiyyəti məlumatlandırmadılar. Hətta Rusiyanın kanalları da mənə zəng elədi, bütün dünya yazdı, amma Azərbaycan mətbuatı cəmiyyəti məlumatlandırmadı. Mənə inanın ki, əgər əlimin altında dəqiq məlumatlar olmasa, mən heç zaman onu yazmağa risk etmərəm.

***- Bəs bu xəbərləri yaydığınız üçün sizə hər hansı təzyiqlər oldumu?***

- Xeyr, heç bir təzyiq olmadı. Təzyiqi eləmək istəyənlər bütün gün facebook səhifəmi izləyiblər. Özlərindən də eşitdim ki, məndə heç bir səhv olmayıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015

**Dekabrın 7-də Sabirabad Rayon Məhkəməsində müxalifət lideri Pənah Hüseynin yeddi qohumunun məhkəməsi keçirilib. Musavat.com-un xəbərinə görə, hakim Firdovsi Əliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən qohumların vəkilləri çıxış ediblər.**

# Pənah Hüseynin qohumları son söz üçün vaxt istədilər

## Vəkillər baş verən hadisənin xuliqanlıq olmadığını əsaslandırır və bəraət istəyir, hakim də barışığı alqışlayır…

**Vəkil Rəşad Mehdizadə** bildirib ki, indiyə qədər ittiham olunan şəxslərin vəkillərinin verdiyi vəsatətlər qəbul olunmayıb. O, bir neçə gün əvvəl tərəflər arasında barışıq əldə olunmasını müsbət və mühüm addım hesab edib.

**Həmçinin bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxslərin əməli xuliqanlıq deyil:** "Törədilmiş əməlin xuliqanlıq olub-olmaması aydınlaşmadı. Vəsatətlərdə biz istəyirdik ki, bu, dəqiq araşdırılsın. Cinayət işi başqa maddələrlə-127.1 və 128-ci maddələrlə başladı, xuliqanlıqla bağlı maddə sonradan tövsif olunub, bununla bağlı ittiham verilib. Əməlin niyə xuliqanlıq olması ilə bağlı bir cümlə əsaslandırma yoxdur. Xuliqanlıqla bağlı müvafiq qərarlarda, həmçinin Konstitusiya Məhkəməsinin müvafiq qərarında göstərilən əlamətlər bu işdə yoxdur. Baş vermiş hadisə ictimai yer deyil, kənddən aralıdır. Ən yaxın ev həmin yerdən 500-700 metr uzaqdadır. İttiham olunan müdafiə etdiyim şəxslər barəsində bəraət hökmü çıxarılmalıdır. Hadisədə xuliqanlıq tərkibi yoxdur. Bu səbəbdən məhkəmədən bəraət hökmü çıxarılmasını xahiş edirəm".

**Vəkil Nemət Kərimli qeyd edib ki, törədilən əməl xuliqanlıq deyil:** "Çölün düzündə hansı cəmiyyət olub ki, ona qarşı açıq hörmətsizlik edilib? Müdafiə etdiyim Adil Hüseynov isə hadisə yerinə sonradan gəlib. Əməldə cinayət tərkibi olmadığından, cinayət işi başlana bilməz. Başlanıbsa, xitam verilməlidir. Hakimdən bəraət verməsini xahiş edirəm".

**Vəkil Mirismayıl Hadi isə bildirib ki, baş verən hadisədə xuliqanlıq cinayətinin əlamətləri mövcud deyil:** "Konstitusiya Məhkəməsinin qərarında da bu, əsaslandırılıb, qiymət verilib. Orada göstərilən xuliqanlıq əlamətləri bu hadisədə yoxdur. Hadisə kənddən kənar əkin sahəsində baş verib. Hadisədə xuliqanlıq cinayətinin tərkibi olmadığından, Qaşqay Hüseynov barəsində bəraət hökmü çıxarılmalıdır".

Vəkil Ramiz Musayev isə deyib ki, təqsirləndirilən Mansur Hüseynov əslində zərərçəkəndir. Sonradan rayon polis idarəsinin qarşısında baş verən hadisə nəticəsində zərərçəkmiş olub. Bununla bağlı həkimdən arayış da var. Mən də müdafiə etdiyim şəxsə bəraət verilməsini istəyirəm".

**Qarşı tərəfin, təqsirləndirilən Rəsul Dəmirovun vəkili də deyib ki, dövlət ittihamçısı ağır cəza istəyib. Alternativ cəza olduğu halda, ağır cəza istənməsini vəkil tənqid edib. O, həmçinin deyib ki, baş verən hadisə xuliqanlıq deyil, kənd sakinləri arasında uzun illər davam edən şəxsi problemlərdən irəli gələn məsələdir:** "Bu, şəxsi münasibətdən irəli gələn məsələdir. Buna niyə xuliqanlıq kimi qiymət verilib? Heç bir ictimai qayda pozulmayıb. Hadisə İnzibati Xətalar Məcəlləsinə uyğundur. Birinci hadisə üzrə işə bəraət verilməsini, ikinci iş üzrə də 128-ci maddə ilə tövsif olunmasını xahiş edirəm".



Bundan sonra dövlət ittihamçısı replika hüququndan istifadə edərək çıxış edib. O, fikrini əsaslandıraraq ağır cəzaların üstündə dayanıb. Bu isə hər iki tərəfin vəkillərinin yenidən replika ilə çıxışına səbəb olub.

Vəkillər vurğulayıblar ki, ekspertizanın nəticələri ibtidai istintaqı şübhə altına salıb. İfadələr təzadlıdır. Ekspertizadan sonra ifadələr dəyişdirilib. Hadisə baş verən yer də ictimai yer deyil, evlərdən uzaqda əkin sahəsidir. Vəkillər istintaqın mövqeyi ilə razı olmadıqlarını vurğuladılar. Onlar istintaq zamanı bununla bağlı fikirlərini çatdırdıqlarını da xatırlatdılar. Vəkillərin sözlərinə görə, istintaq normal aparılmayıb, məsələlərə qərəzli yanaşılıb.

Hakim çıxışlardan sonra fasilə elan edib. Fasilədən sonra isə təqsirləndirilənlərin son söz deməsi istənilib. Təqsirləndirilənlər isə məhkəmədən vaxt istəyiblər. Dövlət ittihamçısı buna etiraz edib və onların dərhal son söz deməsini istəyib. Məhkəmə növbəti prosesi dekabrın 14-nə təyin edib.

Xatırladaq ki, 2014-cü ilin avqustunda Sabirabadın Qaraqaşlı kəndində kənd sakinləri arasında mübahisə baş verib. Nəticədə kənddən kənarda, əkin sahəsində Rəsul Dəmirov Adil Hüseynovu vuraraq su kanalına salıb. Bundan bir gün sonra hər iki tərəfdən qohumlar mübahisəni aydınlaşdırmaq üçün yığışıblar və dalaşıblar. Bir müddət sonra isə rayon polis idarəsinə çağırılan zaman idarənin həyətində Rəsul Dəmirov Mansur Hüseynovu vurub.

**❑ Röya RƏFİYEVA**
**❑ Fotolar müəllifindir**

# Cahangir Hacıyev bütün sirlərini istintaqda açır

## Sabiq bankir əmlaklarının siyahılarını, gizli bank hesablarının nömrələrini, devalvasiyadan əvvəl həyata keçirilən əməliyyatlar haqda bütün məlumatları açıqlayıb

**Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyev dekabrın 4-də qandallandı. Bununla da "onu həbs etməyəcəklər" deyənlərin ən son arqumentləri əlindən alındı. Məhkəmə "Beynəlxalq Bank işi"nə görə həbsə alınan digərləri kimi, Cahangir Hacıyevin də barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçdi. Əli qandallanan sabiq bankir məhkəmədən Bakı İstintaq Təcridxanasına etap olunub.**

Dekabrın 7-də isə məlum olub ki, tutulandan sonra C.Hacıyev daha bir vəzifəsini itirib. Cahangir Hacıyev barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə əlaqədar Bakı Fond Birjasının (BFB) Müşahidə Şurasına yeni sədr seçiləcək. Bu barədə APA-nın sorğusuna cavab olaraq BFB-dən məlumat verilib. "Bakı Fond Birjasının Müşahidə Şurasının sədrinin seçilməsi birjanın səhmdarlarının ümumi yığıncağının səlahiyyətində olan bir məsələdir. Hazırda bu məsələ ilə bağlı müzakirələr aparılır" deyə, məlumatda vurğulanıb. Hazırda C.Hacıyevin səlahiyyətlərini Araz Əliyev icra edir.

Gələn məlumatlar onu deməyə əsas verir ki, "Beynəlxalq Bank işi" və onunla əlaqə olan digər işlər üzrə də həbslər olacaq. "Yeni Müsavat"a daxil olan ən son məlumatlara görə, Cahangir Hacıyev ev dustaqlığında olduğu son aylar ərzində istintaqla sıx əməkdaşlıq edib. Bütün əmlaklarının siyahılarını, gizli bank hesablarının nömrələrini, devalvasiyadan bir neçə gün əvvəl həyata keçirilən bank əməliyyatları haqda bütün məlumatları ifadələrinə daxil edib. Onun qudası Eldar Mahmudovun əleyhinə ifadə verdiyi haqda da məlumat var. Digər bir məlumata görə, "MTN işi" üzrə yaradılmış istintaq qrupunda Daxili İşlər Nazirliyinin müstəntiqləri də var. Həmin qrupda olan DİN müstəntiqləri paralel olaraq "Beynəlxalq Bank işi" üzrə də istintaq aparan qrupun üzvüdürlər.



Yəni Eldar Mahmudovun həbsi üçün DİN müstəntiqləri də Baş Prokurorluq qarşısında vəsatət qaldıra, Eldar Mahmudovun qudasının ifadəsi əsasında həbsini tələb edə bilərlər. Bununla belə, oktyabrın 17-də işdən çıxarılan milli təhlükəsizlik naziri Eldar Mahmudovun niyə həbs edilməməsi ətrafında müəmmalı vəziyyət davam edir.

Onu tutduğu vəzifədən uzaqlaşdırandan sonra belə xəbərlər yayılmışdı ki, Eldar Mahmudov barəsində ev dustağı qətimkan tədbiri seçilib.

Bu arada sabiq nazirin saxlanılma yeri haqda da məlumat almışıq. Bir neçə gün əvvələ qədər belə məlumat vardı ki, E.Mahmudovu Xüsusi Dövlət Mühafizə İdarəsi əməkdaşlarının ciddi nəzarət altında Bakı ətrafındakı dövlət bağlarından birində saxlayırlar. Onu həmin bağ evinə oktyabrın sonunda Badamdardakı dəbdəbəli imarətindən çıxarılaraq yerləşdirildiyi bildirilirdi. Son məlumatlara görə, Eldar Mahmudov həmin bağ evindən növbəti dəfə dindirilməyə aparılarkən ciddi ürək krizi keçirib və MTN-in Bilgəh qəsəbəsində yerləşən sanatoriyasına aparılıb. Onun dindirilib-dindirilmədiyi haqda dəqiq bilgi yoxdur. Amma sabiq nazirin "istintaqla əməkdaşlıq etdiyi" deyilir. Onun və noyabrın 12-də prezident İlham Əliyevin sərəncamı ilə rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad olunan Əli Abbasovun dekabrın sonuna qədər həbs olunacaqları xəbəri də var.

Baş Prokurorluğun son məlumatına görə, MTN-dən qovulan 19 sabiq vəzifəli şəxs Cinayət Məcəlləsinin müvafiq maddələri ilə həbs olunub, 1 nəfər ev dustağı edilib, istintaqdan yayınan 1 şəxs barəsində axtarış elan edilib.

Baş Prokurorluğun açıqladığı siyahıdan sonra mediada ev dustağı edilən şəxsin MTN-in Əməliyyat-Texniki Baş İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mirvətova olduğu iddia edildi. Amma 19 nəfərlik həbs edilənlər siyahısında N.Mürvətovanın adı var. Bu halda isə ev dustağı edilən şəxsin, "Yeni Müsavat"ın yazdığı kimi, Eldar Mahmudov olması təsdiqlənir.

**❑ E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015

# Türkiyəyə qarşı embarqo Azərbaycana ciddi təsir etməyəcək



## İqtisadçı ekspert: "İlkin dövrlərdə Rusiya alternativ bazar kimi Azərbaycana baxa bilər, ancaq..."

**Moskva-Ankara münasibətləri Rusiyanın "Su-24" təyyarəsinin vurulmasından sonra gərgin olaraq qalır. Münasibətlərin korlanması ən əvvəl iqtisadiyyatda özünü göstərməkdədir. Belə ki, Rusiya təyyarənin vurulması ardınca bır sıra Türkiyə malının idxalına qadağa qoyub və bəzi digər iqtisadi sanksiyalara başlayıb.**

Maraqlıdır, Rusiyanın Türkiyə məhsullarına, xüsusən də kənd təsərrüfatı məhsullarına qadağa qoyması Azərbaycanda kənd təsərrüfatı məhsullarının qiymətinə təsir edəcəkmi? Bunu öyrənmək üçün "Vosmoy bazarı" kimi tanınan "8-ci kilometr" bazarına və bir neçə marketə üz tutduq. Həmçinin yol boyu arabalarda kənd təsərrüfatı məhsulu satan satıcılardan da qiymətlərin necə olması ilə maraqlandıq.

Bazardakı qiymətlərdə artım və ya ucuzlaşma müşahidə etmədik. Satıcıların əksəriyyəti baş verən olaylardan xəbərsiz olsalar da çoxu məlumatlı idi. **Meyvə-tərəvəz satıcısı Ənvər Məmmədov deyir ki, qiymətlər yeni ilə yaxın bahalaşacaq:** "Qiymətlər bayramqabağı qismən bahalaşır. Həm də qışda yaya nisbətən bahalaşma olur. Sonrası nə olacaq bilmirəm. Onsuz da xaricdən gətirilən meyvələrin qiyməti yerli məhsullara nisbətən bahadır".

**Digər satıcı Elşad Əliyev isə əksinə, embarqo tətbiq edilərsə, qiymətlərdə ucuzlaşma olacağını deyir:** "Əgər Rusiya Türkiyədən kənd təsərrüfatı məhsullarını almırsa, bizdən alacaq deməkdir. Həmçinin Türkiyə də məhsullarını Azərbaycana daha çox satmalı olacaq ki, bu da bazarda bolluq olacağını deməyə əsas verir. Bolluq olduğu təqdirdə isə qiymətlər qismən aşağı düşəcək. Amma nə qədər ucuzlaşsa da hazırkı əmək haqları ilə yaşamaq çətindir. Ən ucuz qiymət belə bizə görə olduqca bahadır".

Ümumi qiymətlərə gəlincə isə soğan 70-80 qəpik, kartof 1 manat, 1 manat 20 qəpik, pomidor 70 qəpik 1 manat arası, badımcan 50 qəpik, bibər 5 dənəsi 1 manat, limon 1 dənəsi 30 qəpik, kələm 70 qəpiyə satılırdı. Ərzaq məhsullarında da bahalaşma vardı. Belə ki, duru yağlarda 20-30 qəpik, banka yağlarda 20 qəpik, düyüdə 10-30 qəpik, çaylarda isə 10 qəpik bahalaşma vardı.

***

**İqtisadçı ekspert Rəşad Həsənov Türkiyə ilə bağlı situasiyada analoji vəziyyətin yaranacağını dedi:** "Rusiya-Türkiyə arasındakı bugünkü münasibətlərdən müsbət mənada nələrəsə ümid etmək doğru olmazdı. Yəni burada Azərbaycan fürsətcil kimi görünməməlidir. Azərbaycan hansısa formada dəstək göstərəcəksə, ilk növbədə Türkiyənin yanında olmalıdır. Türkiyəyə tətbiq edilən embarqolar Avropa Birliyi ölkələrinə edilən embarqolara bənzəyir. Həmin dövrdə də ümid olunurdu ki, Azərbaycandan Rusiyaya idxal olunan məhsulların həcmi sürətlə artacaq. Əvəzində isə Azərbaycan bazarlarında qıtlıq yaşanacaq. Təbii ki, təklifin azalması qiymətlərin bahalaşmasına yol açacaqdı. Amma sonrakı dövrlər , xüsusən də rublun kəskin şəkildə dəyərini itirməsi nəticəsində Rusiya bazarları Azərbaycanlı biznesmenlər üçün heç də cəlbedici olmadı. Nəticədə bu istiqamətdə ixracın gözlənilən səviyyədə artımı baş vermədi. Düşünürəm ki, Türkiyə ilə bağlı bu situasiyada da analoji vəziyyət yaranacaq. Türkiyədən idxal olunan məhsullara embarqonun tətbiqi Azərbaycandan idxalın artımına səbəb olmayacaq".



**Ekspert ilkin dövrlərdə Rusiyanın alternativ bazar kimi Azərbaycan məhsullarına baxa biləcəyini dedi:** "İlkin dövrlərdə Rusiya alternativ bazar kimi Azərbaycan məhsullarına baxa bilər. Azərbaycanlı sahibkarlar da bu fürsətdən istifadə etməyə cəhd göstərə bilərlər. Amma ümumi götürdükdə bu istiqamətdə ciddi irəliləyiş olmayacaq və növbəti dövrlərdə Rusiya bazarlarına çıxmaq imkanı məhdud olan türkiyəli iş adamlarının, Türkiyə istehsalçılarının Azərbaycan bazalarına yol tapması məqbul görünür ki, bu da sonda bütün məhsulların qiymətinin ucuzlaşacağını deməyə əsas verir".



❑ Günel MANAFLI

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclərın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Dəm qazı Bakıda daha iki can aldı

**Dəm qazı Bakıda 2 nəfərin həyatına son qoyub. Lent.az Daxili İşlər Nazirliyinə istinadən xəbər verir ki, dekabrın 5-də Xətai rayonu ərazisində yaşayan Vüqar Adıgözəlov mənzilində dəm qazından zəhərlənərək ölüb. Bundan başqa, Sabunçu rayonunun Pirşağı qəsəbəsində yaşayan Aynur Məmmədova evinin hamam otağında dəm qazından zəhərlənərək ölüb, qızı Banu və oğlu Əlişah isə xəstəxanaya yerləşdiriliblər. Məlumata görə, qəsəbədəki fərdi yaşayış evində yaşayan 1977-ci il təvəllüdlü Aynur Məmmədova 8 yaşlı qızı Banu və 9 yaşlı oğlu Əlişahı hamamda çimizdirirmiş. Bu zaman qaz sobasından çıxan dəm qazı hamam otağına dolub. Ana və 2 uşağı qazın təsiri ilə huşunu itirib.**

A.Məmmədovanın həyat yoldaşı onların hamama girməsindən yarım saat keçməsinə baxmayaraq çıxmamalarından narahat olub və qapını döyüb. Hamamdan səsin gəlmədiyini görən ailə başçısı qapını sındırıb və xanımı ilə övladlarının huşsuz vəziyyətdə yerdə qaldığını görüb. O, ailə üzvlərini avtomobillə dərhal xəstəxanaya gətirib. Lakin artıq gec olub və 38 yaşlı A.Məmmədova keçinib. Tibbi müdaxilədən sonra orta məktəbin 2-ci və 3-cü sinfində oxuyan uşaqların həyatı üçün yaranmış təhlükə sovuşub.



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 273 (6301) 8 dekabr 2015







# Oğlunun doğum günündə itkin düşən neftçinin dəhşətli həyat hekayəsi

## Neftçinin xanımı: "Elşadın soyuğa dözümü yox idi..."

**"Ateş düşdüyü yeri yakar" deyə, məşhur türk atalar sözü var. Bu dəfə də atəş əvvəlcə düşdüyü yeri yandırdı: 63 neftçinin çalışdığı Günəşli yatağı alovlar arasında qaldı. Bu alovun acısı neftçilərin sevdiklərini və ardınca bütün Azərbaycanı yandırdı.**

İndi ortada olan faciə hamımızındır. Qəza baş verən günün sabahı neftçilərimizin yarıdan çoxu xilas edildi. 29 nəfər isə həm ailələrinin, həm də bütün Azərbaycanın gözünü Xəzərdə qoyub. Heç kim onların geri qayıtmayacağına inanmaq istəmir. Elə ailələri kimi...Hər kəsdə bir ümid var. Bəlkə hardasa, kimsə onları sağ tapar deyə...

***

İtkin düşən neftçilərdən biri də Rəsulov Elşad Balaoğlan oğludur. 44 yaşlı neftçi ailəsini gözü yolda qoyub. İki uşaq atasının itkin düşməsi xəbəri oğlunun doğum günündə ailəsinə çatıb.

"Yeni Müsavat" olaraq Rəsulovlar ailəsinin dərdlərinə şərik olmağa, onlara səbr diləməyə çalışdıq. Düzdü, təskinlik verənlər çox olsa da, ailənin gözlədiyi yalnız şad xəbərdir. Övladları və xanımı evin başçısının sağ olması xəbərini eşitmək istəyirlər.

E.Rəsulovun xanımı ilə telefon danışığımızda bizə dediyi sözlər qan dondurur. Evlərinə getməyimizə razılıq verən Vüsalə xanım "gələndə Elşadı da gətirin" dedi. Səmimi etiraf etmək istərdik ki, bu sözdən sonra Rəsulovların evinə getmək fikrindən o andaca daşınmışdıq. Çünki bu söz qarşısında çarəsizlik insanı məhv edir. Vüsalə xanımın danışığın sonunda "gəlin, gözləyirik" deməsi bizi onlara getməyə vadar etdi.

Bizi binanın həyətində Rəsulovlar ailəsinin qonşuları qarşıladı. "Onlar da sizi gözləyir" deyərək bizi evə apardılar. Bütün qohumlar kiçik bir evdə toplaşıblar. Onlar çətin gündə Rəsulovlar ailəsinə dəstək olmaqla yanaşı şad xəbər gözləyirdilər. Hər qapı açılanda içəri girənin, hər zəng gələndə dəstəyin arxasındakı şəxsin verəcəyi xəbərə diqqət kəsiliblər.





***

**Vüsalə Rəsulova hadisənin baş verdiyi gün yaşananları danışır. İlk cümlədə öyrənirik ki, həmin gün onlar Elşad Rəsulovdan zəng gözləyirlərmiş. Çünki hadisə baş verən günün səhəri- dekabrın 5-i övladlarının doğum günü imiş:** "Elşad hər dəfə uşaqların doğum günündə saat 12-ni keçən kimi zəng edərdi. Biz də ondan zəng gözləyirdik. Həmin gün onunla danışmışdıq. Amma bilirdik ki, 12-dən sonra dekabrın 5-i olan kimi yenə zəng edəcək. O gün danışanda Elşad mənə demişdi ki, get bazarlıq elə, uşağın doğum gününü qeyd edin. Biz istəyirdik ki, o gələndən sonra olsun. İşə çıxanda telefon yanlarında olmurdu. 12-də zəng gözlədik, amma etmədi. Sonra telefonuna zəng çatmadı. Partlayışın olmasını da feysbuqdan uşaqlar oxudu".

**Partlayış xəbərindən sonra ailə üzvləri həyəcanla Elşad Rəsulovla əlaqə saxlamağa çalışıblar. Vüsalə xanım deyir ki, həmin an Elşad Rəsulovun telefonuna zəng çatıb. Amma uzun müddət cavab verməyib:** "Elə bil yerin altında idik. Zəng etmədiyimiz yer qalmamışdı. Elşada zəng elədik. Sonra onun telefonunu



iş yoldaşlarından biri açdı. Dedilər ki, qəza olub. Elşad qayıqdadır".

**İtkin düşən neftçinin qızı Aysel bu il Bakı Dövlət Universitetinə qəbul olub. Ailədən sonuncu dəfə Aysel atası ilə danışıb:** "Hadisədən yarım saat əvvəl atamla danışdım. Dedi ki, burda güclü külək var. Orda hava necədir? Dedik soyuqdur. Hadisə 17:40-da olub. Amma biz gecə saat 1-də xəbər tutmuşuq. Feysbuqdan oxuduq ki, partlayış olub. Sonra atama zəng etdik. Telefonuna zəng çatırdı. İş yoldaşları ilə danışa bildik. Dedilər ki, qəza olub, Elşadgil qayıqdadır. Həmin telefonla bir neçə dəfə danışdıq. Atamla danışa bilmədik".

Elşad Rəsulov 22 ildir neft sektorunda çalışırmış. Ailəsinin dediyinə görə, Elşad uzun illərdir qəza baş verən platformada işləyirmiş. İşinin təhlükəli olması ilə bağlı hərdən ailə üzvləri ilə də danışırmış.

**Doğum günündə atasından təbrik zəngi gözləyən Baloğlan evin ən kiçiyidir. Və atasının işlə bağlı danışdıqlarını belə xatırlayır:** "Ata deyirdi ki, elə bil atom bombasının üstündə oturmuşuq. Çox təhlükəli idi. Hər dəfə danışanda bilirdik ki, təhlükədir. Bir neçə dəfə işdən çıxmasını istəmişdik. Biz də qorxurduq. Küləkli, yağışlı havada tez-tez zəng edirdik".

Elşad Rəsulov təkcə öz ailəsinin başçısı deyildi. O, vəfat edən bacısının 3 övladına da atalıq edirdi. 44 yaşında böyük qardaşını itirən Elşadın çiyinlərində qardaşının ailəsinin də məsuliyyəti var idi.

**Vüsalə Rəsulova Elşadın qayıdacağından ümidini üzməyib:** "Bacısının üç övladına atalıq edirdi. Qızlardan birinin nişanı olmuşdu. Gələn ay toyu olacaqdı. Hamısının yükünü üstümdə qoydu. Nə olar, özü sağ gəlsin. Gözümüz yoldadır. Bizimki səbrdən keçib. Ölüm xəbərini gözləmirəm. İşdən çıxmasını istəyirdik. Amma qızına görə çıxmırdı. Qızımız bu il universitetə qəbul olub. Deyirdi ki, pensiyaya az qalıb. Vaxt başa çatsın, çıxacam".

**Ailə hadisənin dəhşətini Elşad Rəsulovun iş yoldaşlarının ziyarətindən sonra öyrənib. Vüsalə xanım deyir ki, sağ qalan neftçilər bu gün onları ziyarət edib:** "Elşadın iş yoldaşları bizə gəlmişdilər. Hadisənin necə baş verdiyini danışdılar. Elşən adlı iş yoldaşı dedi ki, qayıq qırılıb, onlar suya düşüblər. Gözlərinin qarşısında çabalayıblar. Elşadın soyuğa dözümü yox idi..."

Hadisədən xəbər tutandan sonra dekabrın 5-də ailə üzvləri Zığ qəsəbəsində yaradılan qərargaha toplaşıblar. Axşam saatlarına qədər gözləsələr də bir xəbər ala bilməyiblər. Mərkəzi Neftçilər Xəstəxanasına gələn ailə burada yaralı neftçilər arasında Elşad Rəsulovu tapa bilməyib.

**Vüsalə xanımın qardaşı Vüqar Məmmədov deyir ki, elə bu vaxt biliblər ki, Elşad Rəsulov dənizdə qırılan qayıqda olub:** "Xəstəxanada yaralılar görəndə bildik ki, onlar yoxdur. Mən gecə saatlarınadək Elşadın iş yoldaşı Mahalla danışırdım. O mənə demişdi ki, Elşadgil olan qayıq qırılıb. Mahal Allah ümidinə platformada qalıb. Onlar qayıqları endirib. Özləri qalıblar orda".

**Ailənin bütün üzvləri deyir ki, hadisə zamanı neftçilərin xilasedici jileti olub.**

"Xilasedici jiletləri olub. Elşadgil hava küləkli olduğundan jileti səhərdən geyiniblər. Ümidimiz o jiletədir. Elşadı o jiletə görə tapa bilərlər" deyən Vüsalə xanım ümidlərini itirmədiklərini bildirdi.

Söhbət zamanı evdə olan qohumlar, ağsaqqallar hərdən səbr diləyir, Elşad Rəsulovun ya ölüsünü, ya da dirisini gözlədiklərini deyirlər. Lakin onun ailə üzvləri "Allah səbr versin", "heç olmasa, ölüsü gəlsin" fikirlərini qətiyyən qəbul etmir...

**Elə bizimlə sağollaşanda Vüsalə xanımın son cümləsi də belə oldu: "Elşadın sağ olması xəbərini bizə ilk siz verin..."**

**İlkin MURADOV,**
**Məhəmməd TÜRKMƏN**

YENİ MÜSAVAT

Son səhifə

N 273 (6301) 8 dekabr 2015

# Oyuncağa bənzəmək üçün sərvət xərclədilər

Rus və fransız cütlük idealları olan kuklalara bənzəmək üçün böyük bir sərvət xərcləyiblər. İki il əvvəl 20 yaşlı rus Anastasiya Reskos və telefon mağazası sahibi olan fransız Quentin Dehar bir tədbirdə tanış olublar. Həmin gündən sonra cütlüyün hər ikisinin həyatı dəyişib. Belə ki, Anastasiya Barbi, Dehar isə Kenə bənzəmək üçün bir neçə dəfə əməliyyat edilib. Onlar bir-birilərini gördükləri zaman çox bəyənib sevsələr də, sonra dəyişməyə qərar veriblər. Bu günə qədər Anastasiya əməliyyatlara 129 min 700, Quentin isə 79 min 300 dollar xərcləyib. Anastasiya sinə əməliyyatına 10 min, burnuna 6 min 500, botoks üçünsə 750 dollar xərcləyib. Digər tərəfdən isə Quentin əməliyyatlara 6 min, botoksa isə 2 min xərcləyib. Anastasiya bu günə qədər 100-dən çox Barbi kuklasına sahib olduğunu, Quentin isə Ken kuklalarını sevdiyini deyib.



# Evdə dişlərinizi ağarda bilərsiniz



Bahalı məhsul və ya müalicələrə tonlarla pul xərcləmədən daha ağ dişlər istəyirsiniz? Xoşbəxtlikdən diş ağartma üçün möcüzəvi nəticələr verən və karbonat maddəsi çay, qəhvə, siqaret və digər ərzaq və içkilərin səbəb olduqları ləkələri aradan qaldırma mövzusunda olduqca təsirli bir maddədir. Bir neçə damla limon suyu və bir çay qaşığı karbonatı bir fincanda qarışdırın. Qarışığı məcun qatılığına gələnə qədər qarışdırmağa davam edin. Əldə etdiyiniz pastanı bir diş fırçası istifadə edərək ya da barmağınızın ucuyla dişlərinizə tətbiq edin. Pastanı xüsusilə dişlərinizin ləkəli hissəsinə iki dəqiqə ərzində ovaraq tətbiq edin. İki dəqiqədən çox istifadə etməməyə diqqət edin. Əks təqdirdə, diş minası aşılana bilər. Bundan başqa karbonat dadının çox gözəl olmadığını da xatırlatmadan keçməyək. Tətbiq etdikdən sonra qalan məcun artıqlarını ağzınızdan bol su ilə çalxalayaraq tüpürün və təmiz bir diş fırçası ilə normal bir diş pastası istifadə edərək dişlərinizi fırçalayın. Karbonat və limon suyu ilə diş ağartma əməliyyatını bir gün tətbiq edin, bir gün ara verin. Bu şəkildə 7 tətbiq etdikdən sonra 2 həftə ara verin və əgər dişləriniz hələ kifayət qədər ağ deyilsə təkrar 7 tətbiq edə bilərsiniz. Dişlərinizin 5 dəqiqə əvvəlki vəziyyətləri ilə pastanı tətbiq etdikdən sonrakı bəyazlığını qarşılaşdırdığınızda mükəmməl nəticəni görəcəksiniz.

# Feysbuk intiharların qarşısını almaq üçün xidmət yaradıb

Feysbuk son zamanlarda istifadəçiləri arasında artan intihar hadisələrini azaltmağın yeni yollarını axtarır. Milli.az xeberler.az-a istinadən xəbər verir ki, feysbuk istifadəçilərinin intihar etməsinin qarşısını almaq üçün yeni xidmətini istifadəyə verib. Araşdırmalar nəticəsində məlum olub ki, bu istifadəçilərin yaşadıqları böhranlardan və paylaşımlardan, bəyənmə sayında və digər məsələlərdə özünü göstərir. Feysbukun tədqiqat qrupu "intiharın qarşısını almaq" adlı xidməti istifadəyə təqdim etdiyini bildirib. Hazırda sınaq mərhələsində olan "intiharın qarşısını almaq" xidməti Avstraliyada sınaqdan keçirilir. Feysbuk edilən intihar hadisələrinin çoxunda intihar edən istifadəçilərin əvvəldən feysbuka qeyd etdiyini müəyyənləşdirib. Feysbuk səlahiyyətliləri bu hərəkətin yanlış olduğunu bildirərək, istifadəçiləri niyyətlərindən daşındırmağı sınayacaq. Bu sistem istifadəçilərin feysbuk dostları vasitəsilə reallaşacaq. Feysbukda dost siyahınızda olan birinin intihara cəhd edəcəyini düşünürsünüzsə, bu xidmət vasitəsilə həmin profili əlavə edərək feysbukun həmin istifadəçini nəzarətdə saxlamasını təmin etmək olar. Feysbuk əldə edilən məlumatlardan sonra istifadəçiyə intiharın səhv addım olduğunu izah edən və bu niyyətindən imtina etməsinin səbəblərini açıqlayan bir nеçə məktub göndərəcək. Eyni zamanda xidmət həmin istifadəçinin psixoloji dəstək alması üçün yerli təşkilatlarla da məlumatlandıracaq.






# Vampirə 10 il həbs

İngiltərənin Stoke-on-Trent şəhərində evinə dəvət etdiyi dostunun qolunu kəsərək qanını içən Tomas Goug 10 il müddətinə azadlıqdan məhrum edilib. 20 yaşlı gənc dostunun qolunu kəsib qanını içdikdən sonra "yaşamaq üçün buna ehtiyacım vardı" deyib. Gougun vampir olduğundan xəbərsiz olan dostu Mattev Vitehurst onu içki içmək adı ilə evə çağırdığını deyib. Məlumatlara görə, Vitehurstun qolunda 8 santimetrlik yara əmələ gəlib. Xəstəxanaya aparıldıqdan sonra qoluna tikiş qoyulan Vitehurst polisə şikayət edib. T.Gougun sevgilisi isə ona qanlar içində gördüyü zaman şoka düşdüyünü və böyük bir travma yaşadığını deyib. Hakim qarşısına çıxarılan 20 yaşlı vampirə 10 il həbs cəzası verilib.




QOÇ - Kifayət qədər uğurlu gündür. Planlarınızın əksəriyyəti müsbət müstəviyə yaxınlaşacaq. İşlə bağlı əsaslı dönüşə nail olmaq istəyirsinizsə, nüfuzlu şəxslərlə əlaqələri dərinləşdirin.

BUĞA - Ulduzların düzümü gün ərzində ovqatınızın xoş olacağını bildirir. Əgər vaxt tapıb müqəddəs ziyarətgahlara baş çəksəniz, daxili sıxıntılarınız da səngiyəcək. Sevgiyə laqeyd qalmayın.

ƏKİZLƏR - İştirakçısı olduğunuz hadisələri özünüzdən yaxşı analiz edən yoxdur. Deməli, gün ərzində külli-ixtiyar öz əlinizdə olacaq. Ulduzlar əksər sahələrdə müdafiənizdə duracaq.

XƏRÇƏNG - Təxminən saat 15-ə qədər gərginliklə baş-başa qalacaqsınız. Ola bilsin ki, ünsiyyətdə olduğunuz bəzi şəxslərlə mübahisələrə də cəlb olunasınız. Bu səbəbdən "qatığa ağ deməyə" çalışın.

ŞİR - Yaxşı olar ki, bütün vaxtınızı adi işlərin həllinə yönəldəsiniz. Hər hansı risk və ya yeni iş uğursuzluqla nəticələnəcək. Pul sövdələşmələrindən isə ümumiyyətlə kənar durun.

QIZ - İşgüzar sövdələşmələr üçün ideal vaxtdır. Çalışın ki, müsahiblərinizin ədalətli rəyi ilə hesablaşasınız. Yalnız bu halda perspektivli gələcək barədə düşünməyə dəyər.

TƏRƏZİ - Müəyyən məsələlərdə özünüzü aldatmayın. Sözlə deyil, əməllərinizlə özünüzə qarşı rəğbət oyadın. Göy qübbəsi bu gün qarşınıza yeni və xeyirxah adamlar çıxaracağını bildirir.

ƏQRƏB - Lovğalıq, özündənrazılıq və hər şeyə qərəzli yanaşmaq sizə başucalığı gətirən deyil. Odur ki, ətrafda olanlarla mülayim və səmimi davranmağa çalışın. Axşama yaxın sevinəcəksiniz.

OXATAN - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər fəaliyyətdə, istər qarşılıqlı münasibətlərdə, istərsə də məhəbbət müstəvisində işləriniz qənaətbəxş olacaq. Özünüzə inanın.

OĞLAQ - Hiss olunur ki, insanlar yavaş-yavaş sizi başa düşməyə meyl edir. Deməli, daxilinizi narahat edən ideyaları açıqlamaq olar. Bu gün yalnız Tanrıya xoş gedən hərəkətlər edin.

SUTÖKƏN - Əsas devizimiz müqəddəs Avestada göstərilən "Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl" olmalıdır. Gün ərzində Ali Həqiqətə çatmaq üçün məhz bu üç prinsipə söykənməlisiniz.

BALIQLAR - Ulduzların düzümü bu təqvimdə mübahisəli situasiyalara cəlb olunacağınıza işarə edir. Özünüzü qoruyun, çılğınlığınızı cilovlayın. Saat 16-dan sonranı isə bütünlüklə sevgiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Deniz Sekinin həbsdən ilk görüntüləri



Baş rollarında Oktay Kaynarca və Deniz Çakırın oynadığı "Eşkiya Dünyaya Hükümdar Olmaz" serialında Deniz Seki sevənlərə sürpriz olacaq. 13 aydır həbsdə olan müğənni Deniz Seki ilk dəfə həbsxanadan ekranda görünəcək. O, serialda ssenariyə görə həbsə düşən Meryem Çakırbeyli obrazının (Deniz Çakır) dostu olacaq. Müğənni həbsxanada yazıb bəstələdiyi mahnını da ilk dəfə serialda səsləndirəcək. Qeyd edək ki, ifaçının "əzab çəkdiyimiz yer sadəcə cəhənnəm deyil, heç kimin eşitmədiyi bir yerdir" sözləri sosial mediada izləyicilərini kədərləndirib (milli.az).

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300